RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 119 (8998) ÇƏRŞƏNBƏ, 8 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## Prezident Azərbaycan Respublikasının Gənclər Fondu Müşahidə Şurasının tərkibinin dəyişdirilməsi haqqında Sərəncam imzalayıb

→ 2

## Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhərinin Pirallahı rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 1,0 (bir) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyun 2022-ci il*



# Böyük Zəfər möhtəşəm quruculuqla davam edir

→ 3



## Xarici ölkə rəhbərlərinin Prezident İlham Əliyevə Müstəqillik Günü münasibətilə təbrik məktubları gəlməkdə davam edir

→ 2

## Məqsəd 2030-cu ilədək olan dövrdə "yaşıl artım" ölkəsinə çevrilməkdir

Azərbaycanda bərpaolunan enerji növlərinin inkişafı istiqamətində davamlı layihələr həyata keçirilir. Ölkəmiz "yaşıl enerji" siyasətinə münasibətdə uzunmüddətli hədəflər müəyyən edib. Azərbaycan təkcə neft və qaz deyil, eyni zamanda elektrik enerjisi ixrac edən ölkədir. Nəhəng potensial və zəngin təcrübə kimi amillər tanınmış enerji şirkətlərini cəlb etməyə və yenilənən enerjiyə investisiya yatırmağa imkan verir.

Xarici investorlar Azərbaycanın uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin edilməsi prosesinə həvəs və inamla qoşulublar. Bu ilin yanvar ayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tikintisinə start verilib. Daha sonra - martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməli qoyulub.

→ 4

## ABŞ-dan ermənilərə növbəti zərbə

30 ilə yaxın işğal altında qalan torpaqlarımız ermənilər tərəfindən yalnız talan olunmayıb. Bu dövrdə bütün şəhər və kəndlərimiz, tarixi və dini abidələrimiz, mənəvi dəyərlərimiz həm də vandalizmə məruz qalıb, dağıdılıb. Bütün dünyaya özünü nəcib xalq kimi tanıtmağa çalışan ermənilərin bu dövrdə işğal altında saxladıqları Azərbaycan torpaqlarında törətdikləri barbarlığın miqyasının tarixdə tayı-bərabəri yoxdur.

Özlərindən saxta tarix uyduran ermənilər işğal dövründə Qarabağ və Şərqi Zəngəzurdakı mənəvi və milli abidələrimizi özününküləşdirməyə çalışıblar. Buna nail olmadıqda isə onu dağıdıblar. 30 ilə yaxın bir müddətdə işğal altında saxladıqları torpaqlarımızda Azərbaycan xalqına aid tarixi izləri ən müxtəlif üsullarla itirməyə çalışıblar. Hətta qəbirlərdən insan sümüklərinin çıxarılmasına qədər vəhşiliyə imza atıblar.

Lakin artıq ermənilər öz əməllərini ört-basdır edə və bunun üçün özlərindən yeni saxtakarlıqlar uydura bilmirlər. Çünki beynəlxalq ictimaiyyət Vətən müharibəsindən sonra yaranmış yeni reallıqları qəbul etdiyi kimi, ermənilərin Azərbaycan torpaqlarında həyata keçirdikləri vandallıqları da etiraf etməyə başlayıb. Bunun ən bariz nümunələrindən biri ABŞ Dövlət Departamentinin dünyada dini etiqad azadlığının vəziyyəti ilə bağlı 2021-ci il üçün illik hesabatında yer alan məlumatlardır.

Multikulturalizmin və multikonfessional icmaların ölkəmizdə mövcud olmasını təsdiq edən hesabatda bildirilir ki, Azərbaycan Respublikasında Rus pravoslav kilsəsi, Gürcü pravoslav kilsəsi, Erməni apostol kilsəsi, Yeddinci günün adventistləri, Molokan kilsəsi, Roma katolik kilsəsi, yevangelistlər, baptistlər və Yehovanın şahidləri, yəhudilərin və bəhailərin sinaqoqları, məbədləri və digər dini evləri də fəaliyyət göstərir.

→ 2

## Quraqlığa dözümlü, tezyetişən və məhsuldar toxum sortlarının istehsalına diqqət artırılıb

Hazırda dünyanın qarşılaşdığı böyük problemlərdən biri də ərzaq təhlükəsizliyi ilə bağlıdır. Bunun səbəbi əhalinin sürətlə çoxalması, ərzağa olan tələbatın artması, ərzaq məhsulları istehsalının isə azalmasıdır. Mütəxəssislər ərzaq istehsalının azalmasını həmçinin dünyada baş verən iqlim dəyişikliyi ilə əlaqələndirirlər. Belə ki, bir yandan leysan yağışlar əkin sahələrini sıradan çıxarır, digər tərəfdən quraqlıq üzündən münbit torpaqlar səhralaşmağa başlayır.

Bu problemlə bağlı vəziyyəti koronavirus pandemiyasının yaratdığı çətinliklər daha da ağırlaşdırdı. Üç ilə yaxın davam etmiş pandemiya təchizat zəncirinin qırılmasına səbəb oldu. Dünya bu xəstəliyin fəsadlarını aradan qaldırmağa macal tapmamış digər problemlə üzləşdi. Rusiya-Ukrayna münaqişəsi çətin olan vəziyyəti daha da gərginləşdirdi. Məlum olduğu kimi, Rusiya buğda ixracına məhdudiyyətlər qoyub. Ukrayna isə Qara və Azov dənizlərindəki limanların mühasirədə olması səbəbindən məhsul ixrac edə bilmir. Bu üzdən, BMT mütəxəssislərinin hesablamalarına görə, dünyada 40 milyon insanın çörəklə təminatı risk altına düşüb.

Azərbaycan dövləti vətəndaşların ərzaqla təminatında problemlərin olmaması üçün ciddi tədbirlər görür. Bu məqsədlə kənd təsərrüfatında müasir texnologiyalardan istifadəyə geniş yer verilir. Məlumdur ki, Azərbaycan su resursları məhdud olan ölkələrdəndir. Bu üzdən sudan qənaətlə istifadə texnologiyalarının aqrar sektorda tətbiqi genişləndirilir. Eyni zamanda quraqlığa dözümlü, tezyetişən və məhsuldar toxum sortlarının istehsalına xüsusi diqqət yetirilir. Kənd Təsərrüfatı Nazirliyi mütəxəssislərinin tez-tez bölgələrə səfər etməsi, taxılçılıqla məşğul olan sahibkar və fermerlərlə görüşləri də bununla bağlıdır. Hazırda diqqət yüksək texnologiyalardan və yeni toxum sortlarından istifadə etməklə məhsuldarlığın artırılmasına yönəldilib.

→ 4



# Beşbarmaq mistikası

### Peyğəmbərlərin görüş məkanı, müqəddəs ziyarətgah, tarixi istehkam...

→ 6

## Bağışla ana, mən şəhid olmadım...

Bağışla ana, məni bağışla. Bəxtim gətirmədi. Şəhid olmadım. Səni şəhid anası edə bilmədim. Məclislərdə yuxarı başda oturda bilmədim. Əllərini öpdürə bilmədim.

Bağışla məni, məni bağışla. Şəhidlər xiyabanında dəfn oluna bilmədim. Qara mərmərdən, bahalı mərmərdən baş daşım olmadı. Doğum günümdə, anım günümdə dostlarımı, qohumlarımı başıma yığa bilmədim. Məzarım gülə-çiçəyə bürünmədi. Şəkillərim yol kənarına vurulmadı. Adıma bulaq tikilmədi. Bu bulaqdan hər su içənə ruhuma dualar oxutdura bilmədim.

→ 5




## Bakıda 6-cı "F-1" həyəcanı yaşanır

Bakı ilk dəfə deyil ki, "Formula-1" yarışına evsahibliyi edir. Şəhər indiyədək 5 dəfə - 2016-2021-cu illərdə bolid pilotları arasında sürət mübarizəsinin şahidi olmuşdur. İyunun 10-12-də "Formula-1" üzrə 73-ci dünya çempionatının 8-ci mərhələsi - Azərbaycan Qran-prisi motoidman fanatlarının diqqətini özünə cəlb edəcək. Beləcə Odlar yurdu beynəlxalq idman ictimaiyyətinin ən çox maraqlandığı məkan olacaq.

Ölkəmiz milli müstəqilliyin bərpasından bəri evsahibi kimi mötəbər beynəlxalq idmantədbirlərinin təşkilində yetərli təcrübə toplayıb. Beynəlxalq turnirlərə hazırlıq işləri aparılarkən səlahiyyətli orqanlar vahid komanda kimi çıxış edir, idmançıların və azarkeşlərin rahatlığını təmin etmək üçün bütün lazımi tədbirləri görür. Təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilir.

→ 7

## Çin yaratdığı möcüzələr sırasına daha birini əlavə etmək istəyir

Dünya iqtisadiyyatının nəhənglərindən biri olan Çin ixtiraları, yenilikləri ilə hər zaman diqqətləri cəlb edib. Bəşəriyyəti təhdid edən qlobal böhranların yaratdığı fəsadlara rəğmən ölkə yenə də öz möcüzələri sırasına daha birini əlavə etmək istəyir.

Çin Xalq Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Si Cinpin insan və təbiətin harmonik şəkildə yaşaya biləcəyi "Modern Çin"in qurulması, habelə kollektiv şəkildə saf mühitin yaradılmasına daha böyük töhfələr verilməsi üçün səy göstərməyə çağırıb.

→ 8

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Gənclər Fondu Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" 2018-ci il 13 mart tarixli 3784 nömrəli Sərəncamında dəyişiklik edilməsi və "Azərbaycan Respublikasının Gənclər Fondu Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3784 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" 2018-ci il 29 avqust tarixli 444 nömrəli Sərəncamının ləğv edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Gənclər Fondu Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3784 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 3, maddə 509, № 8, maddə 1778) 1-ci hissəsi ilə təsdiq edilmiş Müşahidə Şurasının tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Müşahidə Şurasının sədri**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri

**Müşahidə Şurasının üzvləri**

Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri
"Azərbaycan Tələbə Gənclər Təşkilatları" İttifaqının sədri
Azərbaycan Könüllü Təşkilatları İttifaqının İdarə Heyətinin üzvü
"Azərbaycanlı Tələbələr və Məzunlar Platforması"nın İdarə Heyətinin üzvü.".

2. "Azərbaycan Respublikasının Gənclər Fondu Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 mart tarixli 3784 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 avqust tarixli 444 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1778) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 iyun 2022-ci il*

# ABŞ-dan ermənilərə növbəti zərbə

## İşğalçıların Azərbaycan torpaqlarında həyata keçirdiyi vandallıqlar beynəlxalq səviyyədə də etiraf olunur



30 ilə yaxın işğal altında qalan torpaqlarımız ermənilər tərəfindən yalnız talan olunmayıb. Bu dövrdə bütün şəhər və kəndlərimiz, tarixi və dini abidələrimiz, mənəvi dəyərlərimiz həm də vandalizmə məruz qalıb, dağıdılıb. Bütün dünyaya özünü nəcib xalq kimi tanıtmağa çalışan ermənilərin bu dövrdə işğal altında saxladıqları Azərbaycan torpaqlarında törətdikləri barbarlığın miqyasının tarixdə tayı-bərabəri yoxdur.

Özlərindən saxta tarix uyduran ermənilər işğal dövründə Qarabağ və Şərqi Zəngəzurdakı mənəvi və milli abidələrimizi özününküləşdirməyə çalışıblar. Buna nail olmadıqda isə onu dağıdıblar. 30 ilə yaxın bir müddətdə işğal altında saxladıqları torpaqlarımızda Azərbaycan xalqına aid tarixi izləri ən müxtəlif üsullarla itirməyə çalışıblar. Hətta qəbirlərdən insan sümüklərinin çıxarılmasına qədər vəhşiliyə imza atıblar.

Lakin artıq ermənilər öz əməllərini örtbasdır edə və bunun üçün özlərindən yeni saxtakarlıqlar uydura bilmirlər. Çünki beynəlxalq ictimaiyyət Vətən müharibəsindən sonra yaranmış yeni reallıqları qəbul etdiyi kimi, ermənilərin Azərbaycan torpaqlarında həyata keçirdikləri vandallıqları da etiraf etməyə başlayıb. Bunun ən bariz nümunələrindən biri ABŞ Dövlət Departamentinin dünyada dini etiqad azadlığının vəziyyəti ilə bağlı 2021-ci il üçün illik hesabatında yer alan məlumatlardır.

### Ermənistanda dini zəmində güclü nifrət mövcuddur

Multikulturalizmin və multikonfessional icmaların ölkəmizdə mövcud olmasını təsdiq edən hesabatda bildirilir ki, Azərbaycan Respublikasında Rus pravoslav kilsəsi, Gürcü pravoslav kilsəsi, Erməni apostol kilsəsi, Yeddinci günün adventistləri, Molokan kilsəsi, Roma katolik kilsəsi, yevangelistlər, baptistlər və Yehovanın şahidləri, yəhudilərin və bəhailərin sinaqoqları, məbədləri və digər dini evləri də fəaliyyət göstərir.

Ermənistana gəldikdə isə hesabatda qeyd olunur ki, bu ölkədə dini zəmində nifrət halları mövcuddur. Belə ki, Yəhudi icmasının üzvləri 2020-ci ilin payızında Vətən müharibəsi zamanı İsrailin Azərbaycana göstərdiyi dəstəyə görə antisemitizmin, o cümlədən Ermənistan ictimaiyyəti nümayəndələrinin mənfi çıxışlarının və yahudilərə qarşı vandalizmin artdığını bildiriblər. Holokost və Soyqırımı Memorialının 2020-ci ilin müharibəsindən sonra üçüncü dəfə vandalizmə məruz qaldığı qeyd olunur. Azlıqların dini nümayəndələri bildiriblər ki, Ermənistanda cəmiyyət və ailə təzyiqləri etnik ermənilər üçün erməni apostol dinindən başqa dinə etiqad etməyə əsas maneə olaraq qalır.

### Siyasi-diplomatik fəaliyyətin uğurlu nəticəsi

Hesabatda ermənilərin Qarabağ və Şərqi Zəngəzurda Azərbaycanın tarixi-mədəni irsinə qarşı törətdikləri vandallıqlar, məscidlərin, qəbirlərin təhqir olunması ilə bağlı məlumatların yer alması Azərbaycan dövlətinin Vətən müharibəsindən sonra sistemli şəkildə həyata keçirdiyi diplomatik fəaliyyətin uğurlu nəticəsidir. Məsələn, hesabat müəlliflərinin istinad etdiyi sənədlərdən biri Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi "Ermənistan və Azərbaycan arasında münaqişənin humanitar nəticələri. Dağlıq Qarabağ münaqişəsi" adlı qətnamədir. Hesabatda həmin qətnaməyə istinadən qeyd olunur ki, əvvəllər Ermənistanın dəstəklədiyi separatçıların nəzarətində olan və Azərbaycan tərəfindən azad edilən ərazilərdə vurulan zərərə və dağıntılara, "xüsusilə də Ağdam, Füzuli və digər ərazilərin demək olar ki, tamamilə dağıdılması və talan edilməsinə, habelə son 30 il ərzində mədəni irsin istismarına" görə Ermənistan məsuliyyət daşıyır.

Müharibədən sonra Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərə xarici diplomatların, jurnalistlərin, bloqçuların, vətəndaş cəmiyyəti təmsilçilərinin çoxsaylı səfərlərini təşkil edib. Məhz onların Qarabağ və Şərqi Zəngəzurda şahidi olduqları erməni barbarlığı ABŞ Dövlət Departamentinin diqqətindən yayınmayıb. Hesabatda qeyd olunur ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfər etmiş diplomatların, vətəndaş cəmiyyəti nümayəndələrinin və jurnalistlərin sözlərinə görə, Ermənistanın nəzarəti altında olarkən bu ərazilərdə yüzlərlə abidə, o cümlədən regionun etnik azərbaycanlıların istifadə etdiyi məscidləri, ziyarətgahları talan edilib, vandalizmə, təhqirlərə məruz qalıb və ya tamamilə dağıdılıb.

Dünyaşöhrətli fotojurnalist Rza Deqqətinin çəkdiyi fotolar da hesabat müəlliflərinin diqqətini çəkib. Sənəddə qeyd olunur ki, "REZA" kimi tanınan peşəkar dünyaşöhrətli fotojurnalist Rza Deqqəti Füzuli, Ağdam, Zəngilan, Kəlbəcər və Cəbrayıl rayonlarında onlarca azərbaycanlı qəbiristanlığının sistemli şəkildə dağıdılmasını lentə alaraq sənədləşdirib. Qəbirlər təhqir edilib, bəzi hallarda qəbirləri qarət etmək üçün çuxurlar qazılıb, digər yerlərdə isə ağır tikinti texnikası istifadə edərək qəbirlərin dağıdılıb qarətgərlik edilməsinə dair sübutlar toplanıb. Bir çox qəbirlərin başdaşları dağıdılıb. Bundan əlavə, azərbaycanlıların cəsədlərinin qalıqları təhqir edilib, qızıl dişləri çıxarılıb, sümükləri isə ərazilərdə səpələnib və ya bəzi hallarda tamamilə dağıdılıb. Deqqətinin sözlərinə görə, erməni məzarları demək olar ki, toxunulmaz qalıb.

### Qərb diplomatları qəbiristanlıqda yalnız bir sınıq başdaşının qaldığını bildiriblər

Hesabatda Azərbaycan ərazilərinin ermənilər tərəfindən minalanması məsələsinə də toxunulub. Qeyd olunub ki, vətəndaş cəmiyyəti nümayəndələrinin, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının və Azərbaycan hökumətinin fikrincə, Azərbaycanın azad olunmuş ərazilərinin ermənilər tərəfindən geniş şəkildə minalanması şəhər və kəndlərdəki yüzlərlə dini obyektin böyük əksəriyyətinə girişi qeyri-mümkün edib və o abidələrə dəyən ziyanın həcmi illər boyu naməlum qala bilər.

Bununla belə hesabat müəlliflərinin fikrincə, aşkar olunmuş və sənədləşdirilmiş ziyanı bir neçə misalla nümayiş etdirmək olar. Məsələn, Füzuli rayonundakı XIX əsrə aid olan Hacı Ələkbər məscidinin ermənilər tərəfindən dağıdılmasını, Ağdamdakı Cümə məscidinin üzərində erməni dilində qraffiti yazılmasını və mehrabının güllələnməsini qeyd etmək olar. Ağdam rayonundakı qəbiristanlıqlar, o cümlədən şəhərin Şəhidlər xiyabanı və İmarət Qərvənd qəbiristanlığının XVIII əsrə aid müqəddəs və tarixi məqbərələri təhqir edilib, talan edilib və ya dağıdılıb. Hesabatda qeyd olunur ki, Şəhidlər xiyabanını ziyarət edən Qərb diplomatları bir vaxtlar cəsədlərin basdırıldığı çuxurları gördüklərini və qəbiristanlıqda yalnız bir sınıq başdaşının qaldığını bildiriblər.

44 günlük müharibədən sonra dünya 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlayan təcavüzkarın hansı xislətin daşıyıcısı olduğunu görməyə başlayıb. Belə etiraflar və hesabatlar isə çox olacaq və xəstə erməni təfəkkürünün bəşəriyyətə ləkə olduğu beynəlxaq səviyyədə tam təsdiqini tapacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Möhtərəm cənab Prezident!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan Respublikasına və onun xalqına davamlı tərəqqi və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***Maha VAÇİRALONQKORN,***
***Tailandın Kralı***

❖ ❖ ❖

Zati-aliləri, cənab Prezident!

Ölkənizin milli bayramı - Müstəqillik Gününün qeyd edilməsi Sizə səmimi təbriklərimi göndərmək üçün mənə xoş bir fürsət yaradır.

Təbriklə yanaşı, Sizə, Azərbaycan xalqına firavanlıq və sülh arzularımı çatdırıram.

Zati-aliləri, cənab Prezident, Sizə olan dərin, səmimi və yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Pol BİYA,***
***Kamerun Respublikasının Prezidenti***

❖ ❖ ❖

Cənab Prezident!

Azərbaycanın milli bayramı - Müstəqillik Günü münasibətilə Paraqvay hökuməti, xalqı adından və şəxsən öz adımdan zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Əminəm ki, ölkələrimiz arasında mövcud olan səmimi münasibətlər möhkəmlənəcək və bu, gələcəkdə qarşılıqlı maraq doğuran əməkdaşlığın daha da inkişaf etməsinə şərait yaradacaqdır.

Fürsətdən istifadə edərək, bir daha Azərbaycan xalqına və hökumətinə təbriklərimi, zati-alinizə isə ən yüksək hörmət və ehtiramımı çatdırıram.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, xoşbəxtlik arzulayıram.

*Hörmətlə,*

***Mario Abdo BENİTEZ,***
***Paraqvay Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Syerra-Leone Respublikasının hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizi, Azərbaycan hökumətini və xalqını səmimiqəlbdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

Bu əlamətdar gün münasibətilə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan Respublikasına və onun xalqına firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Culius Maada BİO,***
***Syerra-Leone Respublikasının Prezidenti***

# Şeyxülislam Allahşükür Paşazadə Türkiyəyə səfərə gedib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə iyunun 7-dən Türkiyə Cümhuriyyətinə səfərdədir.

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şeyxülislamı səfərə "Mərmərə Qrupu" Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri professor Akkan Suverin dəvət edib.

Vəqfin təşkilatçılığı ilə iyunun 7-9-da İstanbul şəhərində keçiriləcək XXV Avrasiya İqtisadi Zirvə toplantısı çərçivəsində şeyxülislam Allahşükür Paşazadə "Qida, ərzaq, əmtəə böhranı, müharibə Paris Anlaşmasını kölgələyəcəkmi?" mövzusunda panel iclasda əsas məruzəçi kimi çıxış edəcək, dünyada mövcud iqtisadi problemlərin mənəvi baxımdan dəyərləndirilməsinə dair fikirlərini bölüşəcək. Çıxışında QMİ sədri işğal dövründə Qarabağ ərazisində törədilmiş ekoloji fəlakətin miqyasından, Vətən müharibəsindəki zəfərdən sonra Azərbaycan dövlətinin azad olunmuş torpaqlarımızda apardığı geniş bərpa-quruculuq işlərindən bəhs edəcəkdir.

Dörddəbir əsr ərzində mütəmadi olaraq keçirilən, dövlət və hökumət başçılarının, parlamentarilərin və tanınmış ictimai xadimlərin qatıldığı mötəbər toplantının builki zirvəsində postpandemiya dövründə dünyada yaşanan sosial və iqtisadi problemlərin həlli yolları müzakirə ediləcək, enerji və ərzaq təhlükəsizliyi məsələləri gündəmdə olacaq.

Şeyxülislam Allahşükür Paşazadə tədbir çərçivəsində Avrasiya İqtisadi Zirvə görüşünün nüfuzlu iştirakçıları ilə görüşlər keçirəcək.

# Qazilər və şəhid ailələri üçün xüsusi xidmət davam edir

"ASAN xidmət" mərkəzlərində ərazi bütövlüyümüzün bərpası uğrunda yaralananlar və şəhid ailələrinin üzvləri üçün təşkil olunan xüsusi xidmət davam edir.




Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən xəbərə görə, bu günə qədər həmin istiqamətdə 4 min 98 yaralananın və 3 min 943 şəhid ailəsi üzvünün ümumilikdə 8 min 41 müraciəti təmin edilib. Həmin xüsusi xidmət vasitəsilə müvafiq kateqoriyadan olan şəxslər xidmətlərdən növbə gözləmədən yararlana bilirlər. Göstərilən xidmətlər yaralananların və şəhidlərin (vərəsəlik hüququ haqqında şəhadətnamənin verilməsi və bununla bağlı olan digər sənədləşmə işləri daxil olmaqla) yalnız özləri ilə bağlı olan müvafiq işlərə şamil edilir.

Məqsəd canı-qanı bahasına bizə qələbəni yaşadanlara xüsusi qayğının təmin edilməsi, onların daim xalqımızın diqqət mərkəzində olduqlarını göstərməkdir.

"ASAN xidmət" kollektivi ərazi bütövlüyümüzün bərpası uğrunda canlarını fəda etmiş qəhrəman Vətən övladlarına Allahdan rəhmət, yaralananlara isə şəfa diləyir.

# Daxili İşlər Nazirliyində əməliyyat müşavirəsi keçirilib

İyunun 7-də Daxili İşlər Nazirliyində "Formula-1" Azərbaycan Qran-prisinin keçiriləcəyi müddətdə ictimai asayişin mühafizəsinin təşkili və qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında naziryanı əməliyyat müşavirəsi keçirilib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirəni giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov son illər Azərbaycanın bir çox nüfuzlu idman yarışlarına evsahibliyi etdiyini, daxili işlər orqanlarının belə tədbirlərdə ictimai təhlükəsizliyin və ictimai asayişin təmini sahəsində böyük təcrübə qazandığını diqqətə çatdırıb.

Nazir iyunun 10-12-də keçiriləcək "Formula-1" Azərbaycan Qran-prisi ərəfəsində və yarış günləri zamanı da gücləndirilmiş iş rejimində xidmət aparacaq polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının qarşıya qoyulan vəzifələri yüksək səviyyədə yerinə yetirmələrinin vacibliyini diqqətə çatdırıb. General-polkovnik Vilayət Eyvazov iştirakçıların, azarkeşlərin, ölkəyə gələn qonaqların və xarici media nümayəndələrinin təhlükəsizliyi, yarışın keçirildiyi və ətraf ərazilərdə ictimai qaydanın qorunması, buraxılış məntəqələrində təhlükəsizliyin gücləndirilməsi, eləcə də insanların rahat, maneəsiz hərəkəti üçün əlverişli şəraitin təmin edilməsi barədə tələb və tövsiyələrini verib.

# BƏT-in sessiyasında Azərbaycanda əmək və sosial müdafiə sahəsində aparılan islahatlar barədə məlumat verilib

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov Beynəlxalq Əmək Konfransının 110-cu sessiyasında çıxış edib.

Nazir müavini Azərbaycanda sosial sahədə aparılan siyasətin ilk növbədə sosial müdafiə sisteminin əhatəliliyinin təmin edilməsinə yönəldiyini, həmin siyasətin dövlət sosial xidmətlərinə rahat və şəffaf çıxışın yaradılmasına, həssas qrupların sosial təminatının gücləndirilməsinə xidmət etdiyini bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, son 3 ildə ölkəmizdə 4 milyon vətəndaşı əhatə edən 3 sosial islahat paketinin həyata keçirildiyini qeyd edən A.Kərimov bu islahatlar üçün əlavə illik 6 milyard manat (təxminən 3,5 milyard ABŞ dolları) vəsait ayrıldığını diqqətə çatdırıb.

O, Azərbaycanda əmək və sosial müdafiə sahəsində innovativ həllərin geniş tətbiqinin prioritet olduğunu vurğulayıb, 154 sosial xidmətin vahid platformadan şəffaf və operativ şəkildə təqdim olunmasını təmin edən DOST mərkəzləri barədə məlumat verib. Əmək, məşğulluq, sosial təminat üzrə 110 xidmətin tam avtomatlaşdırıldığını, onların yarısının proaktiv xidmətlər olduğunu deyib.

A.Kərimov 44 günlük Vətən müharibəsi nəticəsində ölkəmizin ərazilərinin Ermənistanın işğalından azad edildiyini, həmin ərazilərin "yaşıl enerji" zonalarına çevriləcəyini, smart konsepsiyalar əsasında yenidən qurulmaqda olduğunu diqqətə çatdırıb.

Nazir müavini Azərbaycanın Qoşulmama Hərəkatının sədri olaraq pandemiyaya qarşı qlobal səylərin səfərbər edilməsində ardıcıl səylərindən bəhs edib. Həmçinin ölkəmizin təşəbbüsü ilə Qoşulmama Hərəkatı adından bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışını nəzərdə tutan qətnamənin BMT-nin İnsan Hüquqları Şurasında qəbul olunduğunu qeyd edib.

A.Kərimov ölkəmizdə əmək və məşğulluq sahəsində siyasətin həyata keçirilməsində Beynəlxalq Əmək Təşkilatı və sosial tərəfdaşlarla sıx əməkdaşlığın həyata keçirildiyini vurğulayıb.





◆ Şuşadan reportaj

# Böyük Zəfər möhtəşəm quruculuqla davam edir

## Qədim Şuşa müasir yanaşma ilə yenidən qurulur, magistral kəmərlər, su anbarları tikilir, şəhər dayanıqlı enerji ilə təmin olunur



Yolumuz yenə Şuşayadır...
Zəfər yolu ilə hər tərəfi yam-yaşıl örpəyə bürünən Qarabağın ecazkar mənzərəsinə tamaşa edə-edə irəliləyirik...
Dağların arxasından boylanan günəşin şölələri ətrafa yayıldıqca əsrarəngiz gözəllik insanın ruhunu oxşayır.

Zəfər yolunun hər iki tərəfi ilə drenajlar çəkilib. Yağışlı, qarlı havalarda dağlardan gələn palçıqlı suyun asfalta yayılmaması üçün müvafiq işlər görülüb. Daşaltıdan Şuşaya doğru qalxarkən isə çayın üzərində aparılan tikinti işləri diqqətimizi çəkir və avtomobildən düşüb əraziyə baş çəkirik. Bəlli olur ki, yayda və qışda Şuşanın su təminatında problem yaranmaması üçün çayın üzərində su anbarı tikilir.

Şəhərə yaxınlaşdıqca müasir dəmir dirəklərə birləşdirilmiş yüksəkgərginlikli elektrik xətləri isə onu deməyə əsas verir ki, mədəniyyət paytaxtımız gecə-gündüz dayanıqlı enerji ilə təmin olunur.

Bir sözlə, Şuşadakı tikinti-quruculuq işlərinin hansı sürətlə getdiyini qalaya çatmamış görülən işlərdən aydın təsəvvür etmək mümkündür. 28 il düşmən tapdağında qalan qədim Şuşa indi müasir yanaşma ilə yenidən qurulur və zəfərimizin zirvəsində əsl həyat qaynayır...

### Daşaltı çayı üzərində yeni su anbarı yaradılır

Qala qapısındakı nəzarət-buraxılış məntəqəsini keçmədən ilk qarşılaşdığımız mənzərə Şuşanın daimi su ilə təminatını həyata keçirən "Azərsu" əməkdaşlarının fədakar iş prosesi oldu.

Ötən il Şuşaya səfərimiz zamanı onların çətin iş prosesini yaxından izləmişdik. Həmin zaman Şuşaya Zarıslı və Kirs dağının ətəyindən içməli su xətti çəkilirdi.

Bu dəfə də ilk olaraq onlarla söhbətləşdik:

- Yorulmayasınız. Yaman həvəslə işləyirsiniz...

- Sağ olun, sadəcə işimizi görürük, biz də belə qurub-yaradırıq.

- Burada nə tikilir?

- Yeni su anbarı qururuq çayın üzərində.

- Gündə neçə saat işləyirsiz?

- Vallah saatla işləmirik. Səhər açılandan axşama qədər var gücümüzlə çalışırıq. Arada dincəlirik, amma işimizi də görürük.

- İşiniz avand olsun, sağ olun!

- Siz də sağ olun!

Anbarın tikintisinə rəhbərlik edən şəxsi isə demək olar Azərbaycanda hər kəs tanıyır. Müharibə başa çatandan bəri işğaldan azad edilmiş ərazilərin su təminatını həyata keçirən "Azərsu" ASC-nin qəza-bərpa xidmətinin rəisi, Böyük qayıdışın ilk sakini Oqtay Həziyevdir.

23 il ailəsi ilə birlikdə heç nədən çəkinmədən düşmənin nəzarəti altında olan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndində yaşayan birinci dərəcəli "Əmək" ordenli Oqtay Həziyev təkcə Şuşanın deyil, işğaldan azad olunmuş digər ərazilər üzrə də məsuliyyətli bir işin icrasındadır. Artıq iki ilə yaxındır ki, Qarabağın əksər şəhər və rayonlarının içməli su təminatı, əlavə su ehtiyatlarının tapılması prosesinə rəhbərlik edir.

Oqtay Həziyevlə söhbətimiz əsnasında bəlli olur ki, hazırda Şuşa 24 saat dayanıqlı içməli su ilə təmin olunur. Yeni anbarın yaradılma səbəbi isə yayda çaylarda suyun səviyyəsinin aşağı düşməsidir. Ötən yay bu cür hal müşahidə olunduğu üçün qərara gəlinib ki, Daşaltıda anbar tikilsin və daim su ilə təmin olunsun. Əgər yayda analoji hal baş verərsə, anbardakı sudan istifadə edilsin: "Hazırda inşa edilən anbardan Şuşaya 159 diametrlik boru ilə yeni xətt çəkilir. Zarıslı və Nəbilərdən çəkilmiş 426 diametrlik su boruları da bu təzyiqqırıcı anbarda birləşəcək və şəhərin yayda, qışda su ilə təminatında problem yaranmayacaq".

Oqtay Həziyev deyir ki, hazırda Şuşaya iki mənbədən - Zarıslı və Nəbilər (Kirs dağının ətəyindən) içməli su gəlir. Şəhərin daxilində 6 ədəd qazanxana tikilib və onların hamısı su ilə təchiz edilib.

Yeni çəkilən xətlər gələcəkdə Şuşada yaşaması nəzərdə tutulan 20-25 minə yaxın əhalinin dayanıqlı su təminatını həyata keçirəcək. Bundan əlavə, şəhər daxilində 3 ədəd 1000 kubluq anbar inşa olunur.

Əvvəllər Şuşada keçən sərt qış səbəbindən şəhərə gələn su xətləri donurmuş və əhali suyu vedrələrlə daşımaq məcburiyyətində qalırmış. Amma şəhərə çəkilən yeni su xətləri daha donmayacaq. Bunu Oqtay Həziyev belə izah edir: "Düzdür, əvvəllər belə hallar çox olub. Amma bu gün Şuşaya daha müasir formada, modern avadanlıqlarla su xətləri çəkilir. Özü də bu xətlər 1 metr 70 sm dərinlikdə olacaq. Yəni bu dərinlikdə yerləşdirilən xətlərin donması qeyri-mümkündür".

Oqtay Həziyevin sözlərinə görə, mənbələrdə, magistral kəmərlərdə və şəhərdaxili paylayıcı şəbəkələrdə yaranan problemlərin operativ həlli məqsədilə "Azərsu" ASC-nin mühəndis-texniki heyəti və qəza briqadası tərəfindən Şuşa şəhərində fasiləsiz xidmət təşkil edilib. Bütün bunlar Şuşanın fasiləsiz su təminatının reallaşması üçün həyata keçirilir.

Gördüklərimizə, eşitdiklərimizə əsasən deyə bilərik ki, şəhərin su təchizatı mükəmməl şəkildə təmin olunur. Bu prosesi həyata keçirənlər isə Şuşanın qurucuları kimi tarixə yazılırlar.

Su çəkmək savab işdir. Xüsusən də zirvədə yerləşən qalaya su xəttinin çəkilməsi asan iş deyil. Onlar dağları, qayaları yararaq içməli su ehtiyatı axtarır və tapdıqdan sonra isə həmin çətin relyefə malik əraziləri qazmaqla yeraltı su xətləri çəkirlər. Onlar 44 günlük Vətən müharibəsində igid oğullarımızın dillərdə əzbər olan "Şuşa əməliyyat"çılarının qəhrəmanlıq dastanının davamını yazırlar, desək yanılmarıq.

Fədakar insanlara işlərində uğurlar arzulayıb yolumuza davam edirik.

### Fasiləsiz enerji, fiberoptik kabellə sürətli internet

Zəfərimizin zirvəsinə doğru yüksəkliyə qalxırıq. Nəzarət-keçid məntəqəsinə yetişdikdə diqqətimizi çəkən ilk obyekt yolun sağ tərəfində inşa edilən və şəhəri fasiləsiz dayanıqlı enerji ilə təmin edən 110/35/10 kilovoltluq "Şuşa" yarımstansiyası olur.

Bu rəqəmsal yarımstansiya işğaldan azad ediləndən sonra Şuşa şəhərində istifadəyə verilən ilk obyektdir. Yarımstansiyanın tikintisinə 2020-ci il dekabrın 24-də başlanılıb. 2021-ci il mayın 12-də Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşaya növbəti səfəri zamanı rəqəmsal yarımstansiyanın açılışını edib.

Yarımstansiyanın rəisi Kamil Quliyev deyir ki, 44 günlük Vətən müharibəsi bitər-bitməz "AzərEnerji" Şuşanın Azərbaycanın ümumi enerji sisteminə qoşulması, şəhərin etibarlı, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məqsədilə təxirəsalınmaz işlərə başlayıb. Ən qısa vaxtda aparılan layihələndirmə və komplektləşdirmə işləri başa çatıb. Belə ki, 2020-ci ilin dekabr ayında 3 istiqamətdə işlərə start verilib. "Şuşa" yarımstansiyasının, o cümlədən Füzuli-Şuşa xəttinin tikintisinə başlanılıb. Eyni zamanda Şuşaya yüksəkgərginlikli xəttin gətiriləcəyi Füzulidəki Şükürbəyli yarımstansiyasının genişləndirilərək yenidən qurulmasına start verilib.

Beləliklə, Füzuli rayonunun "Şükürbəyli" yarımstansiyasından başlayaraq 75 kilometr məsafədə minalı ərazilərdən keçməklə, qarlı, şaxtalı, dumanlı iqlim şəraitində, ən çətin relyefdə ikidövrəli olmaqla, 110 kilovoltluq "Şükürbəyli-Şuşa" hava elektrik verilişi xətti çəkilib. Paralel olaraq çətin şərtlər altında Şuşada 110/35/10 kV-yarımstansiya tikilib və məsafədən idarə olunan SCADA Dispetçer İdarəetmə sisteminə qoşulmaqla tam rəqəmsallaşdırılıb. Yəni təkcə Şuşadan deyil, hətta Bakıdan da yarımstansiyadakı vəziyyəti idarə etmək mümkündür.

Burada perspektiv inkişaf da nəzərə alınıb. Yarımstansiya və elektrik verilişi xəttinin tikintisinin çətin coğrafi şəraitdə aparılmasına baxmayaraq, işlər ən qısa zaman ərzində yekunlaşıb. Füzulidəki "Şükürbəyli" yarımstansiyasından Şuşaya 110 kilovoltluq ikidövrəli elektrik verilişi xətti çəkilişi fasiləsiz, növbəlilik prinsipi ilə 73 günə icra olunub ki, bu da nəinki Azərbaycanın, regionun energetika tarixində rekorddur.

Kamil Quliyev deyir ki, hazırda yarımstansiya şəhəri tam olaraq fasiləsiz və dayanıqlı enerji ilə təmin etmək gücündədir. Yarımstansiyadan şəhərin özünə 35 və 10 kilovoltluq xətlər çəkilib. İkidövrəli 110 kilovoltluq xətlərin arasında sistem elə quraşdırılıb ki, istənilən xətdə qəza baş verdikdə digər xəttin hesabına şəhərin enerjisinin təminatında problem yaranmasın.

Elektrik xətləri ilə yanaşı, Füzuli yarımstansiyasından yüksək sürətli fiberoptik kabel xətti çəkilib. Bununla da Şuşaya yalnız elektrik enerjisi deyil, eləcə də sürətli internet şəbəkəsi də gətirilib.

### Şuşada hava yolu ilə elektrik xətti olmayacaq

Rəqəmsal yarımstansiyada rəislə bərabər 7 nəfər işçi heyəti - növbətçi mühəndis, üç elektrik mantyoru və iki çilingər növbəli şəkildə çalışır.

Söhbət əsnasında o da bəlli olur ki, Kamil Quliyev 1991-ci ilin oktyabr ayında Şuşada anadan olub. 1992-ci il mayın 8-də Şuşanın işğalı zamanı 7 aylıq olan Kamil şəhəri qundaqda tərk edib. Ailəsi məcburi köçkün kimi Bakıda məskunlaşıb. Kamil böyüyüb ali təhsil aldıqdan sonra "Azərişıq" ASC-də mühəndis kimi çalışmağa başlayıb. Vətən müharibəsindəki zəfərimizdən sonra Kamil "AzərEnerji" rəhbərliyinə müraciət edərək Şuşa şəhərində çalışmaq istədiyini bildirib və arzusu gerçəkliyə çevrilib: "Şuşanı tərk edəndə heç bir yaşım olmayıb. Amma indi 30 yaşımda doğma şəhərimə qayıtmışam, mənə elə gəlir ki, sanki elə burada böyümüşəm. Doğma şəhərimin yenidən qurulmasında kiçik payımın olması ilə qürur duyuram".

Bu gün Şuşada işığımız gur yansa da, şəhəri nurlandıranlar daha müasir rəqəmsal yarımstansiyaların tikinti prosesini həyata keçirirlər. Şəhərdə yeraltı elektrik xətləri çəkilir. İşlər başa çatdıqdan sonra Şuşanın hava elektrik xətləri tamamən yığışdırılacaq, bütün dirəklər sökülocək. Yəni Şuşada hava yolu ilə elektrik xətti olmayacaq, bütün xətlər yeraltı çəkiləcək. Bu isə o deməkdir ki, küləkli, yağışlı, qarlı havada Şuşanın elektrik enerjisi ilə təminatı prosesində problem yaşanmayacaq.

28 il zindan həyatı yaşayan şəhərin qaranlığa qərq edilmiş hər guşəsi indi nura boyanır. Yenidən qurulub abadlaşan, dünyanın ən gözəl şəhərinə çevrilən Şuşanın gecələri düşmənin bağrını yarır. Şuşanın timsalında zəfərimiz parlayır.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

*Bakı-Şuşa-Bakı*

















# Məqsəd 2030-cu ilədək olan dövrdə "yaşıl artım" ölkəsinə çevrilməkdir

## Xarici investorlar bu hədəfə çatmaqda Azərbaycana dəstək verirlər

Azərbaycanda bərpaolunan enerji növlərinin inkişafı istiqamətində davamlı layihələr həyata keçirilir. Ölkəmiz "yaşıl enerji" siyasətinə münasibətdə uzunmüddətli hədəflər müəyyən edib. Azərbaycan təkcə neft və qaz deyil, eyni zamanda elektrik enerjisi ixrac edən ölkədir. Nəhəng potensial və zəngin təcrübə kimi amillər tanınmış enerji şirkətlərini cəlb etməyə və yenilənən enerjiyə investisiya yatırmağa imkan verir.



Xarici investorlar Azərbaycanın uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin edilməsi prosesinə həvəs və inamla qoşulublar. Bu ilin yanvar ayında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa ediləcək 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının tikintisinə start verilib. Daha sonra - martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməli qoyulub.

Prezident İlham Əliyev işğaldan azad edilmiş əraziləri "yaşıl enerji" zonası elan edib. Burada artıq bir neçə su-elektrik stansiyası inşa edilib və fəaliyyətə başlayıb. Günəş, eləcə də külək stansiyalarının yaradılması ilə bağlı isə konkret planlar var və onlar ardıcıllıqla həyata keçirilir. Məsələn, bp şirkəti ilə imzalanmış icra müqaviləsinə əsasən, Cəbrayıl rayonunda 240 meqavat gücündə günəş-elektrik stansiyasının tikilməsi nəzərdə tutulur. Hazırda bu istiqamətdə müəyyən təhlillər aparılır.

Xatırladaq ki, işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonası 10 min kvadratkilometr ərazini əhatə edir. Buraya daxil olan bölgələr 7200 meqavat günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Aparılmış dəqiq təhlil nəticəsində aydın olub ki, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə 10 min meqavata yaxın bərpaolunan külək və günəş-elektrik enerjisinin istehsalı mümkündür. Regionun Tərtərçay, Bazarçay, Həkəriçay kimi əsas çaylarının və digər kiçik çayların da böyük hidroenerji potensialı var. Həmçinin ilkin təhlillərə əsasən, Kəlbəcərdə günlük 3093 kubmetr, Şuşada isə günlük 412 kubmetr termal su ehtiyatlarının mövcud olması ehtimal edilir.

Eləcə də Xəzər dənizinin nəhəng potensialı var, artıq hesablama aparılıb. Belə ki, Xəzərin Azərbaycan sektorunun potensialı 150 min meqavat təşkil edir. Bu, nəhəng həcmdir. Təbii ki, həmin ehtiyatlar "yaşıl enerji" zonasının yaradılması istiqamətində müxtəlif layihələrin həyata keçirilməsi qarşısında yaşıl işıq yandırır.

Cari il iyunun 1-4-də keçirilən Bakı Enerji Həftəsində bərpaolunan enerji məsələsi müzakirə edilən əsas mövzulardan biri idi. Bu da təsadüfi deyil. Çünki dünya ölkələrinin üzləşdiyi çağırışlar və qlobal enerji balansında gözlənilən struktur dəyişikliyi region üçün də dayanıqlı və təmiz enerji güclərinin artırılması, yeni enerji marşrutların müəyyən edilməsi kimi vəzifələri gündəmə gətirmişdir. Qeyd edildiyi kimi, qlobal və regional enerji təhlükəsizliyinin təmin olunmasına töhfə verən Azərbaycan, xüsusilə, bərpa olunan enerji növlərinin inkişafı istiqamətində davamlı layihələr reallaşdırır. Prezdent İlham Əliyevin Bakı Enerji Həftəsinin iştirakçılarına ünvanladığı məktubunda bu barədə belə deyilir: "Azərbaycanda enerji təhlükəsizliyinə, xüsusilə "yaşıl enerji" siyasətinə münasibətdə uzunmüddətli hədəflər müəyyən edilmişdir. Enerji sahəsində açıq, şəffaf, biznes maraqlarına xidmət edən və nəticələrə hesablanmış əməkdaşlıq və qarşılıqlı dəstək bizim daimi prinsiplərimizdir. 2030-cu ilədək olan dövrdə biz "yaşıl artım" ölkəsinə çevrilməyi və təmiz ətraf mühitə nail olmağı sosial-iqtisadi inkişafa dair milli prioritetlərdən biri kimi müəyyənləşdirmişik. Belə bir siyasət regionda enerji sahəsində uğurlu transformasiya üçün mükəmməl bünövrəni təmin edəcəkdir. Ölkəmizdə mövcud olan sabitlik, iqtisadi inkişaf, müasir infrastruktur, əlverişli biznes mühiti və böyük enerji potensialı bərpaolunan enerji növlərinin istehsalı və ixracı sahəsində geniş perspektivlər yaratmışdır. Azərbaycan enerji sahəsində böyük təcrübəsi olan şirkətlərlə birlikdə bərpaolunan yeni enerji güclərinin yaradılmasına hədəflənən iri layihələrin icrasına başlayıb".

Prezidentimiz qeyd edib ki, regionda enerji təhlükəsizliyi, diversifikasiyası və "yaşıl enerji"yə keçidin sürətləndirilməsi üçün əməkdaşlığımızı daha da genişləndirməliyik. Perspektivdə enerji təhlükəsizliyi sahəsində çağırışları uğurla qarşılamaq məqsədilə bu sahədə yeni texnologiyaların və rəqəmsal həllərin tətbiqi üstünlük təşkil etməlidir.

Bərpaolunan enerjinin böyük bir faydası da odur ki, qaza qənaət etməyə imkan verir. Odur ki, bu sahəyə nə qədər çox sərmayə qoyulacaqsa, bir o qədər mavi yanacağa qənaət ediləcək və onun ixracı artacaq.

27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin açılışındakı çıxışında dövlətimizin başçısının dediyi kimi: "Beləliklə, bütün bu amillərin vəhdəti, o cümlədən enerjinin səmərəliliyi və bizim şəbəkəmizdə itkilərin aradan qaldırılması Azərbaycandan qaz ixracının artırılması ilə nəticələnəcək. Bu, bizim hədəfimizdir və əminəm ki, biz buna nail olacağıq. Çünki bu günədək planlaşdırdıqlarımızın hamısı reallaşıb. Yalnız neft və qaz sahəsində yox, hökumətimiz bütün planlarına nail olub. Biz bütün bunlara maksimal dərəcədə səmərəliliklə nail olmuşuq".

Xatırladaq ki, Azərbaycan 4 qonşu ölkəyə elektrik enerjisi ixrac edir və onun Avropaya ixracını planlaşdırır. Zəngəzur dəhlizi də fəaliyyətə başlayandan sonra yalnız yüklər üçün deyil, elektrik enerjisi üçün mühüm ixrac marşrutu ola bilər.

Dünyanın neft-qaz və enerji sənayesinin inkişafında xüsusi yeri olan Azərbaycan bu gün beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Üzərinə götürdüyü öhdəlikləri layiqincə yerinə yetirməsi və xarici sərmayədarlar üçün əlverişli şərait yaratması ölkəmizin mövqeyini daha da gücləndirir.

"Hər zaman bizim siyasətimiz körpülər qurmaqdan və əməkdaşlığı gücləndirməkdən ibarət olub", - deyir Prezidentimiz.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Quraqlığa dözümlü, tezyetişən və məhsuldar toxum sortlarının istehsalına diqqət artırılıb



Hazırda dünyanın qarşılaşdığı böyük problemlərdən biri də ərzaq təhlükəsizliyi ilə bağlıdır. Bunun səbəbi əhalinin sürətlə çoxalması, ərzağa olan tələbatın artması, ərzaq məhsulları istehsalının isə azalmasıdır. Mütəxəssislər ərzaq istehsalının azalmasını həmçinin dünyada baş verən iqlim dəyişikliyi ilə əlaqələndirirlər. Belə ki, bir yandan leysan yağışlar əkin sahələrini sıradan çıxarır, digər tərəfdən quraqlıq üzündən münbit torpaqlar səhralaşmağa başlayır.

Bu problemlə bağlı vəziyyəti koronavirus pandemiyasının yaratdığı çətinliklər daha da ağırlaşdırdı. Üç ilə yaxın davam etmiş pandemiya təchizat zəncirinin qırılmasına səbəb oldu. Dünya bu xəstəliyin fəsadlarını aradan qaldırmağa macal tapmamış digər problemlə üzləşdi. Rusiya-Ukrayna münaqişəsi çətin olan vəziyyəti daha da gərginləşdirdi. Məlum olduğu kimi, Rusiya buğda ixracına məhdudiyyətlər qoyub. Ukrayna isə Qara və Azov dənizlərindəki limanların mühasirədə olması səbəbindən məhsul ixrac edə bilmir. Bu üzdən, BMT mütəxəssislərinin hesablamalarına görə, dünyada 40 milyon insanın çörəklə təminatı risk altına düşüb.

Azərbaycan dövləti vətəndaşların ərzaqla təminatında problemlərin olmaması üçün ciddi tədbirlər görür. Bu məqsədlə kənd təsərrüfatında müasir texnologiyalardan istifadəyə geniş yer verilir. Məlumdur ki, Azərbaycan su resursları məhdud olan ölkələrdəndir. Bu üzdən sudan qənaətlə istifadə texnologiyalarının aqrar sektorda tətbiqi genişləndirilir. Eyni zamanda quraqlığa dözümlü, tezyetişən və məhsuldar toxum sortlarının istehsalına xüsusi diqqət yetirilir. Kənd Təsərrüfatı Nazirliyi mütəxəssislərinin tez-tez bölgələrə səfər etməsi, taxılçılıqla məşğul olan sahibkar və fermerlərlə görüşləri də bununla bağlıdır. Hazırda diqqət yüksək texnologiyalardan və yeni toxum sortlarından istifadə etməklə məhsuldarlığın artırılmasına yönəldilib.

Tərtər Təcrübə Stansiyasında "Taxılçılıqda yeni sortlar və innovativ becərmə texnologiyaları" mövzusunda tarla müşavirəsi keçirilib. Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri, yerli icra orqanları nümayəndələri, həmçinin kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən bir sıra özəl şirkətlərin təmsilçiləri və taxılçılıqla məşğul olan fermerlər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan kənd təsərrüfatı nazirinin müavini Sarvan Cəfərov ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsində yeni məhsuldar və keyfiyyətli taxıl sortlarının əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, toxumçuluğun inkişafı ərzaq təhlükəsizliyinin təmin olunmasının əsas prioritet istiqamətlərindəndir. Bu sahə ilə bağlı son illər respublikanın 5 bölgəsində müasir tipli toxum emalı müəssisələri yaradılaraq onların fermerlərə xidmət göstərməsi təmin edilib. Eyni zamanda toxumçuluq üzrə təcrübə təsərrüfatlarının maddi-texniki bazası ən müasir avadanlıqlarla təchiz olunub.

Aqrar sektorda fəaliyyətin səmərəli təşkili kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının və keyfiyyətinin yüksəldilməsinə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Yeni sortlardan və sertifikatlı toxumlardan istifadə kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını 20-30 faiz artırır. Tərtər Bölgə Təcrübə Stansiyasında dənli-taxıl bitkilərinin seleksiyası və toxumçuluğu ilə yanaşı, toxumçuluq sistemində yeni innovativ texnologiyalar tətbiq edilməklə keyfiyyətli toxum istehsalı, bitkilərin məhsuldarlığı və keyfiyyətinin yüksəldilməsi üçün müasir resursqoruyucu texnologiyalar, o cümlədən tirəli səpin və suvarma suyuna qənaət edən texnologiyaların tətbiqi istiqamətində elmi-tədqiqat işləri aparılır.

Tədbirdə son illər baş verən iqlim dəyişikliyinin taxılçılığa təsiri və fermerlərin taxıl sortlarına olan tələblərinin dəyişilməsi məsələsinə də toxunub. Qeyd edilib ki, yüksək məhsuldarlıqla bərabər sortun həm də quraqlığa davamlı və tezyetişən olması vacibdir. Həmçinin taxılçılıqda resurslara qənaət etmək üçün yeni və innovativ becərmə texnologiyalarına keçidin zəruriliyi vurğulanıb. Mütəxəssislər onu da bildiriblər ki, arzuolunan əlamətlərin yaradılan yeni taxıl sortlarına daxil edilməsində fermerlərin istəkləri nəzərə alınır.

Təlimdə iştirak edən özəl şirkətlərin nümayəndələri, fermerlər yeni sortların sınağının aparılmasında və onlar üçün toxum yetişdirilməsində Əkinçilik Elmi-Tədqiqat İnstitutu ilə əməkdaşlığa hazır olduqlarını bildiriblər.

Sonda Kənd Təsərrüfatı Nazirliyi tərəfindən pilot layihə olaraq sifon üsulu ilə suvarma texnologiyası nümayiş etdirilib. Qeyd edək ki, bu texnologiya suvarma suyuna 15-20 faiz qənaət etməyə imkan verir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# *Ombudsman:* "Mediasiya ailə mübahisələrinin qeyri-rəsmi prosedurlarla həlli və uşaq hüquqlarının müdafiəsi üçün əlverişli imkandır"

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva ölkəmizdə məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatların tərkib hissəsi kimi təsis olunan mediasiya institutunun yaradılması zərurəti, tətbiqi, fəaliyyət mexanizmi və rolu barədə AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.



*- Hörmətli Səbinə xanım, əvvəlcə müsahibə üçün şərait yaratdığınıza görə sizə təşəkkürümüzü bildiririk. Məlum olduğu kimi, son illər ölkəmizdə aparılan hüquqi islahatlar nəticəsində mübahisələrin daha səmərəli həlli məqsədilə yeni bir institut - mediasiya institutu yaradılıb. Bu institutun səmərəliliyi haqqında nə deyə bilərsiniz?*

- Müsahibə təklifiniz üçün sizə təşəkkürümü bildirirəm. İlk olaraq qeyd etmək istərdim ki, Azərbaycan Respublikasının qanunvericiliyində mediasiyanın tətbiqi və hüquq mexanizmə inteqrasiyası prosesinə müstəqilliyin ilk illərindən başlanılmışdır. Mediasiyanın qanunvericilik əsaslarının möhkəmləndirilməsi, bu institutun hüquq sisteminə inteqrasiyasının intensivləşdirilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə nəzərdə tutulub. Müvafiq olaraq, "Mediasiya haqqında" Azərbaycan Respublikasının qanunu qəbul olunub, "Mediasiya prosesinin həyata keçirilməsi Qaydaları" təsdiqlənib və Mediasiya Şurası təsis edilib.

Mediasiya mübahisələrin neytral, qərəzsiz və işdə marağı olmayan üçüncü şəxslər tərəfindən məhkəməyədək alternativ həlli yoludur. Bu proses tərəflərin hüquq bərabərliyi və əməkdaşlığı, mediatorların qərəzsizliyi və müstəqilliyi, mediasiya prosesinə müdaxilənin yolverilməzliyi və konfidensiallıq prinsiplərinə əsasən həyata keçirilməlidir. Könüllülük mediasiyanın əsas prinsiplərindən birini təşkil edir. Bununla belə "Mediasiya haqqında" qanuna əsasən, kommersiya mübahisələri, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl tərəflərin ilkin mediasiya sessiyasında iştirak etmələri barədə imperativ norma müəyyən edilib.

Bu praktika müxtəlif ölkələrdə fərqli xarakter daşıyır. Məsələn, Türkiyə, İtaliya və digər ölkələrdə Azərbaycan təcrübəsində olduğu kimi ilkin mediasiya məcburi olduğu halda, Rusiya, Belarus, Qazaxıstan, Ukrayna kimi ölkələrin qanunvericiliyinə əsasən, mediasiya bütün hallarda könüllü xarakter daşıyır. Bəzi ölkələrdə isə ən azından bir tərəfin mediasiya prosesinin keçirilməsi ilə bağlı müraciəti olduqda ilkin mediasiyanın imperativ qaydada keçirilməsi nəzərdə tutulur.

*- Mediasiya institutunun tətbiqi hansı zərurətdən irəli gəlir?*

- Hesab edirəm ki, mediasiya prosesi xüsusilə biznes sektoru üçün əhəmiyyətli bir vasitədir. Belə ki, sahibkarlıq fəaliyyəti ilə bağlı yaranmış mübahisələrin həlli məqsədilə birbaşa məhkəməyə müraciət edilməsi biznes üçün bir sıra neqativ nəticələrə, o cümlədən işgüzar münasibətlərin dayandırılmasına, əlavə vaxt itkisinə, eləcə də vəkillərin cəlb edilməsi ilə böyük maliyyə məsrəflərinə səbəb ola bilir. Mediasiya institutu bu maneələrdən yan keçməyə, müvafiq itkilərin qarşısını almağa və ya itkilərin minimuma endirilməsinə zəmin yarada bilər.

Bundan başqa, mediasiya vətəndaşlara da məhkəmə proseslərinə getmədən, mediasiya prosesində iştirak etməklə mübahisələrin qısa vaxt ərzində, peşəkar hüquqi yardımdan istifadə etmədən həll edilməsi, bununla da hüquqların çevik və effektiv müdafiəsi üçün imkanlar yarada bilər. Daha bir müsbət məqam tərəflərin mediasiya prosesinə tam şəkildə nəzarət edə bilməsidir.

*- Bir az əvvəl ailə mübahisələri ilə bağlı məsələyə də toxundunuz. Bu mübahisələrin həllində mediasiya institutunun rolu nədən ibarətdir? Bu halda nəyə diqqət edilməlidir?*

- Hesab edirəm ki, mediasiyanın tətbiqi sahələrindən birini təşkil edən ailə mübahisələrində mediasiya münaqişənin qeyri-rəsmi prosedurlarla sülh yolu ilə həllinə nail olmaq, eləcə də məhkəmə çəkişmələrini və bununla bağlı uşaq hüquqlarının müdafiəsi üçün əlavə tədbirlərin tətbiqini istisna etmək üçün əlverişli imkandır. Ailə mübahisələrində mediasiyanın keçirilməsi zərurəti uşaq hər iki valideynlə birlikdə yaşadıqda, valideynlər ayrı yaşadıqda, habelə uşaqlar valideyn himayəsindən məhrum olduqda yarana bilər. Bütün hallarda mediasiya ilk növbədə uşağın maraqlarına cavab verməli, uşaqların ailə tərbiyəsinin üstünlüyü, onların rifahına və inkişafına qayğı, hüquq və mənafelərinin müdafiəsinin təmin olunması prinsiplərinə uyğun həyata keçirilməlidir.

Ailə mübahisələri barədə danışarkən bəzi statistik məlumatlara da diqqət yetirmək istərdim. Rəsmi statistikaya əsasən, 2019-cu ilə nisbətən 2020-ci ildə nikahların sayı təxminən iki dəfə azalsa da, boşanma hallarının sayı demək olar ki, dəyişməyib.

Boşanmalar bir sıra hallarda o qədər adi hala çevrilir ki, artıq ailədaxili problemlərin həllində ümumi qəbul edilmiş vasitə hesab olunur. Lakin boşanmalar da bir çox hallarda problemsiz ötüşmür. Həmin ərəfədə tərəflər o qədər neqativ emosiyalara qapanırlar ki, artıq hüquqazidd hərəkətlər etməyə başlayır, bir çox hallarda uşaqların hüquqi maraq və mənafelərini nəzərə almırlar. Bu kimi hallar xüsusən uşaqların kimin himayəsində qalması, harada yaşaması, ünsiyyət hüququnun təmin edilməsi və aliment ödənişlərinin təyin olunması zamanı özünü büruzə verir.

Digər tərəfdən, təəssüf hissi ilə qeyd etmək lazımdır ki, qeyri-rəsmi nikahların da sayı az deyildir. Belə münasibətlər isə ailə mübahisələrinin yaranmasına, bu cür ailələrdə doğulmuş uşaqların hüquqlarının pozulmasına gətirib çıxara bilər. Statistikaya diqqət yetirsək, 2020-ci ildə rəsmi qeydə alınmamış nikahda olan qadınlar tərəfindən doğulmuş uşaqların sayı doğulan uşaqların ümumi sayının 14 faizini təşkil edib. Bu göstərici risk altında olan uşaqların sayından xəbər verir ki, bu da narahatlıq doğurmaya bilməz.

Ailə mübahisələrində tərəflərin qarşılaşdıqları və həll edilməli olan əsas məsələlərdən biri də aliment ödənişləri ilə bağlıdır. Bəzən alimenti ödəməli olan tərəf bu ödənişin təyinatını başa düşmək istəmir və qarşı tərəfə neqativ münasibəti, şəxsi prinsipləri səbəbindən ödənişlərin aparılmasından yayınır. Təəssüf doğuran hallardan biri də aliment ödənişlərindən imtinaya məcbur etmək məqsədilə borclu tərəfindən ünsiyyət hüququndan və digər vasitələrdən sui-istifadə edilməsidir. Bu isə borclunun bir valideyn kimi üzərinə düşən vəzifələri dərk etməməsindən xəbər verir. Digər tərəfdən, aliment ödənişləri ilə əlaqədar çətinliklər zəruri icra tədbirlərinin həyata keçirilməməsi və ya vaxtında həyata keçirilməməsi ilə də bağlı olur. Ümumiyyətlə, alimentlə əlaqədar müvəkkilə ünvanlanan bütün şikayətlər üzrə araşdırmalar aparılmaqla, məhkəmə qərarlarının icrası istiqamətində zəruri tədbirlər görülür.

Bütün hallarda ailə mübahisələri zamanı uşaqların cəmiyyətdə normal inkişafını təmin etmək məqsədilə onların yaşayış, təhsil və tərbiyə məsələləri, sosial-psixoloji durumu ön planda olmalıdır.

*- İnsan hüquqlarının müdafiəsi istiqamətində Mediasiya Şurası ilə Ombudsman təsisatının əməkdaşlığını nədə görürsünüz?*

- Əslində, ombudsman Konstitusiya qanunu ilə müəyyən edilmiş səlahiyyətlər əsasında bir sıra funksiyalarla yanaşı, eyni zamanda dövlət qurumları, yerli özünüidarəetmə orqanları, ictimai təşkilatlar və vətəndaşlar arasında körpü rolunu oynayır, bir çox hallarda barışdırıcı funksiya yerinə yetirir.

Digər tərəfdən, mediasiya prosesinin həyata keçirilməsi insan hüquq və azadlıqlarının təmin edilməsi ilə birbaşa bağlıdır. Bu baxımdan qeyd olunan məsələlər bizim üçün də əhəmiyyət kəsb edir və tərəfimizdən bu sahədə Mediasiya Şurası ilə əməkdaşlığa xüsusi önəm verilir. Qeyd olunan sahədə fəaliyyətin əlaqələndirilmiş qaydada düzgün və səmərəli təşkili nəticə etibarilə vətəndaşların hüquq və azadlıqlarının effektiv müdafiəsinə imkan yarada bilər.

Məlumat üçün nəzərinizə çatdırım ki, ölkəmizdə mediasiya institutunun fəaliyyətinin təkmilləşdirilməsi, maarifləndirmə işinin təşkili, pozulmuş hüquqların bərpa olunması, aşkarlana biləcək funksional problemlərin aradan qaldırılması, eləcə də bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Ombudsman Aparatı ilə Mediasiya Şurası arasında əməkdaşlığın perspektivləri müzakirə edilib, bununla bağlı hər iki qurumda əlaqələndirici şəxslər müəyyənləşdirilib.

*- Ümumiyyətlə, mediasiya ilə bağlı ombudsmana müraciətlər daxil olurmu?*

- Mediasiya yeni yaranmış institutdur. İnsanlar bu institut barədə hələ də kifayət qədər məlumatlı deyillər. Digər tərəfdən, bəzi hallarda mediatorlar fəaliyyətləri zamanı müəyyən nöqsanlara yol verə bilir ki, bu da mübahisəli hallara səbəb olur. Məlum olduğu kimi, bu cür şikayətlərə baxılması və onların operativ həlli məqsədilə Mediasiya Şurasında Çağrı mərkəzi və İntizam komissiyası da fəaliyyət göstərir.

Bununla belə, mediatorların fəaliyyəti ilə bağlı ombudsmana da müəyyən şikayətlər daxil olur. Həmin şikayətlərlə əlaqədar tərəfimizdən Mediasiya Şurasına müraciətlər edilib. Həmin müraciətlərin həlli operativ qaydada təmin olunub.

Bir sıra hallarda, xüsusən vətəndaşların "Mediasiya haqqında" qanunun tələbləri ilə bağlı məlumatsız olduqları hallarda tərəfimizdən onlara qanunvericiliyin tələbləri izah edilməklə cavablar verilir.

Hesab edirik ki, şikayətlərin araşdırılması üzrə birgə əməkdaşlıq mediasiya sahəsində mövcud ola biləcək boşluqların, problemlərin aşkarlanması və monitorinqi, habelə bu sahənin təkmilləşdirilməsi perspektivi baxımından əhəmiyyətlidir.

*- Mediasiya sahəsində bundan sonra hansı işlər görülməlidir?*

- Hesab edirəm ki, mediasiya sahəsində xarici ölkələrin təcrübəsi təhlil edilməklə, eləcə də ölkəmizin hüquq sistemi, cəmiyyətin hüquq düşüncəsi və ənənələri nəzərə alınmaqla mediasiya institutunun davamlı təkmilləşdirilməsi məqsədəmüvafiqdir. Məsələn, mediasiya məhkəmə qərarlarının icrası prosesində də kifayət qədər effektiv ola bilər.

Bununla yanaşı, mediasiya institutunun bu və ya digər formada təhsil sistemində tətbiqi də əhəmiyyətli ola bilər. Belə ki, digər ölkələrin təcrübəsində "məktəb mediasiyası"nın tətbiqi diqqətçəkən məqamlardandır. Hesab edirəm ki, bu praktikanın öyrənilməsi və hər hansı formada ölkəmizdə tətbiqi şagirdlər və müəllimlər arasında, eləcə də müəllim-şagird münasibətlərində yarana biləcək mübahisələrin, habelə bullinq probleminin səmərəli həllinə töhfə verə bilər.

Digər bir müsbət təcrübə penitensiar müəssisələrdə, o cümlədən yetkinlik yaşına çatmayan şəxslərin cəza çəkdikləri müəssisələrdə mediasiya institutunun tətbiqi ilə bağlı ola bilər. Bu təcrübə Avropanın bir sıra ölkələrində, eləcə də ABŞ-da tətbiq olunmaqdadır.

Bəzi ölkələrdə mediasiya sessiyasının hakimlər tərəfindən də həyata keçirilməsi imkanları nəzərdə tutulub. Bu halda hakim mediator qismində çıxış edir və iclas protokolu tərtib olunmur. Həmin təcrübə də öz növbəsində nəzərdən keçirilə bilər.

Mediasiya sahəsində məlumatlılıq səviyyəsinin artırılması məqsədilə mərkəzdə və regionlarda maarifləndirmə, məlumatlandırma və təbliğat işinin təşkili, maarifləndirici çap materiallarının hazırlanması ilə mediasiyaya marağın yaradılmasını zəruri hesab edirəm. Belə ki, insanlar mediasiyanın mübahisələrin məhkəməyədək həllindəki rolunu, üstünlüklərini anlamalı, özləri mediasiyanın keçirilməsində maraqlı olmalıdırlar.

# İdeoloji iş və mənəvi-psixoloji təminat üzrə zabit və dövlət qulluqçularının iştirakı ilə metodiki məşğələ olub

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabit və dövlət qulluqçularının iştirakı ilə hərbi hissələrdə tədbirlər keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, plana uyğun olaraq bölmələrdə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin öyrənilməsinə, hüquq qaydalarının və hərbi intizamın möhkəmləndirilməsində komandir-rəis heyətinə kömək göstərilməsinə dair tövsiyə xarakterli metodiki məşğələ keçirilib.

Tədbirlər çərçivəsində hərbi xidmətə yeni çağırılan gənc əsgərlərin xidmət şəraitinə uyğunlaşması və psixoloji sağlamlığının qorunması məqsədilə kollektiv, qrup, eləcə də fərdi qaydada psixoloji yardım və dəstək fəaliyyəti həyata keçirilib, onlarla söhbətlər aparılıb.

Sonda şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb və hərbi qulluqçulara xidmətlə bağlı lazımi tövsiyələr verilib.

# Gəncədə şəhid ailələri və müharibə iştirakçıları ilə görüş keçirilib

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müvafiq tapşırıq və tövsiyələrinə uyğun olaraq dövlət qurumları şəhid ailələri, müharibə iştirakçıları və müharibə əlilləri ilə yaxından maraqlanır, onları narahat edən məsələlərin aradan qaldırılması istiqamətində mütəmadi olaraq tədbirlər həyata keçirir. Ölkənin bütün bölgələrində olduğu kimi, Gəncə şəhərində də bu kateqoriyadan olan vətəndaşlar daim diqqət mərkəzində saxlanılır.

Bu günlərdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov növbəti dəfə şəhid ailələri, müharibə iştirakçıları və müharibə əlilləri ilə görüşərək onların müraciətlərini fərdi qaydada dinləmişdir.









Görüşdə işlə təminat, qeyri-yaşayış sahəsinin layihələndirilməsi, fərdi yaşayış evinin təmiri, müalicə və digər məsələlər müraciətlərin əsasını təşkil edib.

Səsləndirilən bir çox məsələlər yerindəcə həllini tapıb. Bəzi müraciətlərlə bağlı aidiyyəti qurumların nümayəndələrinə müvafiq araşdırma aparmaq və yaranmış problemləri həll etmək tapşırığı verilib.

Qəbulda müraciət edən şəhid ailələri və müharibə iştirakçıları onlara göstərilən xüsusi diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirmişlər.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

# Bağışla ana, mən şəhid olmadım...



Bağışla, ana, məni bağışla. Bəxtim gətirmədi. Şəhid olmadım. Səni şəhid anası edə bilmədim. Məclislərdə yuxarı başda oturda bilmədim. Əllərini öpdürə bilmədim.

Bağışla məni, məni bağışla. Şəhidlər xiyabanında dəfn oluna bilmədim. Qara mərmərdən, bahalı mərmərdən başdaşım olmadı. Doğum günümdə, anım günümdə dostlarımı, qohumlarımı başıma yığa bilmədim. Məzarım gülə-çiçəyə bürünmədi. Şəkillərim yol kənarına vurulmadı. Adıma bulaq tikilmədi. Bu bulaqdan hər su içənə ruhuma dualar oxutdura bilmədim.

Bağışla, məni, məni bağışla, şəhid ola bilmədim. Şəhid ola bilmədim ki, haqqımda kitablar yazıla, filmlər çəkilə, qəzetlərin birinci səhifəsində gülümsər şəkillərim çap olunmadı.

Sinif yoldaşlarım, müəllimlərim haqqımda ürək dolusu tərifələr söyləyərdi. Düzdü, 3 il oxusam da, deyərdilər ki, ən savadlı şagird idi. Heç onu oynaya bilməsəm də, deyərdilər ki, çox gözəl hücumçu idi, idmançı idi, dəliqanlı idi. Bütün məktəb mənimlə fəxr edirdi.

Bağışla, ana, bağışla, mən şəhid olmadım, olammadım. Özümü ən ağır döyüşlərə atsam da, yanımda qardaşlarım düşmən mərmisindən parça-parça olub, şəhidlik zirvəsinə yüksəlsə də, mənim bəxtim gətirmədi. Namərd güllə həmişə məndən yan keçdi. Köynəyimə tikdiyin duamı qorudu məni?! Tapşırdığın Həzrət Abbasmı sinəsini verdi mənə atılan güllələrə?! Bilmirəm. Tapşırdığın Həzrət Abbas canımı qorudu, amma yaxamı qoruya bilmədi. Qurban olduğuma analar o qədər adam tapşırmışdılar ki, hamısına yetişə bilmədi, yanımdakı qardaşımı xilas etməyə baş qarışanda namərd gülləni ayaqlarımı apardı.

Bağışla, ana, bağışla, sənə söz vermişdim ki, səni Ağdama aparacam, Şuşaya aparacam, özü də kürəyimdə. Belə qismət imiş. İnşallah, sən məni apararsan kürəyində. Necə uşaq vaxtı kürəyinə şələyərdin, indi də şələyərsən kürəyinə, apararsan məni Ağdama, Şuşaya.

Ana, mən Şuşanı gördüm, dostlarımın kürəyində gördüm. Sən necə uşaq vaxtı məni kürəyinə şələyərdin, onlar da məni elə kürəklərinə şələmişdilər, qaldırdılar Şuşaya. Gördüm o müqəddəs Kəbə torpağını.

Bağışla, ana, bağışla, mən şəhid olammadım, indi sənə yük olmuşam. Şəhid olsaydım, bir gün, iki gün, qırx gün ağlayardın. İndi səni hər gün ağladıram. Səhər yuxudan durquzanda da, axşam məni yatağa uzandıranda da. Qapı döyüləndə səksənmə, ana, səksənmə. Qonşumuz şəhid qardaşımın anasıdı. Gəlib sənə təskinlik verməyə. Hərçənd ki, onun özünün təskinliyə ehtiyacı var.

Ağlama, ana, sil gözünün yaşını. Təki Vətən sağ olsun! Atasını çox erkən itirmiş şair Vaqif Bəhmənlinin bir şeiri var, ana. Yazır ki, anam qardaş doğmaz indən belə. Sən də mənə qardaş doğammazsan indən belə. Bütün şəhidləri qardaşım bil, ana. Bütün qaziləri qardaşım bil, ana. Sil gözüyün yaşını.

Təki Vətən sağ olsun!
Qoy həmişə günəş olsun,
Qoy həmişə səma olsun.
Qoy həmişə anam olsun,
Mən olmasam da olar!

*Aqil ABBAS*

# Azərbaycan Türk Akademiyaları Birliyinin fəaliyyətinə mühüm töhfələr verib

Qırğızıstanın paytaxtı Bişkek şəhərində Türk Akademiyaları Birliyinin iclası keçirilib. İclasda Türk Akademiyaları Birliyinə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) sədrliyi dövrünün hesabatı dinlənilərək müzakirə edilib, həmçinin əsasnaməyə görə sədrliyin növbəti ölkənin akademiyasına təqdim edilməsi mərasimi keçirilib və bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Tədbiri giriş sözü ilə Qırğızıstan Elmlər Akademiyasının prezidenti akademik Murat Cumatayev açıb. Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Darxan Kıdırəli Türk respublikalarının Akademiyalarında gedən proseslərdən, baş vermiş ən mühüm yeniliklərdən və qarşıda duran vəzifələrdən danışıb.

Türk Akademiyaları Birliyi 2015-ci ildə yaradıldıqdan sonra qəbul edilmiş əsasnaməyə uyğun olaraq, birliyə 2015-2016-cı illərdə Qazaxıstan, 2017-2018-ci illərdə Türkiyə, 2019-2022-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyası sədrlik edib.

İclasda AMEA-nın vitse-prezidenti akademik İsa Həbibbəyli "Türk Akademiyaları Birliyinə Azərbaycan Milli Elmlər Akademiyasının sədrliyi dövrünün hesabatı və qarşıda duran vəzifələr" haqqında məruzə ilə çıxış edib. Məruzəçi son üç ildə akademiyalararası inteqrasiyanın genişləndirilməsi, Birlik Akademiyalarının iştirakı ilə keçirilmiş tədbirlər, ortaq türk mirasının beynəlxalq miqyasda tanıdılması, habelə çap edilmiş mühüm elmi nəşrlər haqqında məlumat verib, qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi zərurətindən danışıb.

Müzakirələrdə Özbəkistan Elmlər Akademiyasının vitse-prezidenti akademik Bəhram Abduxalimov, Tatarıstan Elmlər Akademiyasının prezidenti akademik Myakzyum Salixov, Qırğızıstan Elmlər Akademiyasının Humanitar Elmlər Bölməsinin sədri akademik Abdıldacan Əkmətəliyev və başqaları çıxış ediblər.

Əsasnaməyə görə, Türk Akademiyaları Birliyinə 2022-2023-cü illərdə sədrlik etmək Qırğızıstan Elmlər Akademiyasına həvalə olunub. Akademik İsa Həbibbəyli Türk Akademiyaları Birliyinin rəmzi estafetini bildirən bəyannaməni Qırğızıstan Elmlər Akademiyasının prezidenti akademik Murat Cumatayevə təqdim edib.

Türk Akademiyaları Birliyinin sədrliyinin 2023-cü ilin iyun ayında Tatarıstan Elmlər Akademiyasına transfer edilməsi qərara alınıb.

İştirakçılar Qırğızıstan Elmlər Akademiyasının elmi-tədqiqat İnstitutlarında olub, Zoologiya muzeyini, dünyaşöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun məzarını ziyarət ediblər.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılır, onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür. Baş Prokurorluğun Mətbuat xidmətindən bildiriblər ki, iyunun 7-də baş prokuror Kamran Əliyev Şəmkir Rayon Prokurorluğunun inzibati binasında Şəmkir, Gədəbəy və Daşkəsən rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl baş prokuror Kamran Əliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla anıb.

Kamran Əliyev qəbulda iştirak edən 30 vətəndaşın müraciətlərində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

* * *

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov iyunun 7-də Qəbələ və Oğuz rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Qəbələ şəhərindəki abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsinə dərin ehtiram ifadə edilib.

Şimal-Qərb RETSİ-nin Qəbələ şəhərində yerləşən inzibati binasında baş tutan qəbul zamanı qurumun fəaliyyət istiqamətlərinə uyğun olan müvafiq müraciətlər cavablandırılıb, qaldırılan bəzi məsələlərin yerindəcə həlli ilə bağlı tədbirlər görülüb, həlli araşdırma tələb edən məsələlərlə bağlı yazılı müraciət qeydə alınıb və aidiyyəti şöbələrin icraatına göndərilib.

*AZƏRTAC*

## ◆ Yeni nəşrlər




Görkəmli yazıçı, dramaturq, tərcüməçi, pedaqoq, Əməkdar incəsənət xadimi Əbdürrəhim bəy Haqverdiyevin xatirəsinə həsr olunmuş albom-kitab işıq üzü görüb. "Əbədiyyət yolçusu" adlandırılan albom-kitab "Təhsil" nəşriyyatında çap edilib.

# Realist ədəbiyyatın tərəqqisində rolu olan yazıçı

Yeni nəşr Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əbdürrəhim bəy Haqverdiyevin 150 illik yubileyinin qeyd edilməsi haqqında" 31 yanvar 2020-ci il tarixli sərəncamına müvafiq olaraq hazırlanıb. Nəşrin tərtib edəni, ön sözünün müəllifi və redaktoru Mustafa Çəmənli, ideya müəllifi "Təhsil Nəşriyyatı-Poliqrafiya" müəssisəsinin direktoru Tural Axundov, nəşriyyat redaktoru Gülər Ələkbərqızıdır.

Yubiley nəşrində Əbdürrəhim bəy Haqverdiyevin həyat və fəaliyyətini əhatə edən xatirələr, haqqında dövri mətbuatda dərc olunmuş məqalələr, sağlığında və vəfatından sonra çap olunmuş kitablarına çəkilmiş illüstrasiyalar, əsərləri əsasında hazırlanan teatr tamaşalarından, bədii filmlərdən fraqmentlər, ona həsr olunmuş rəsm əsərləri, fotoşəkillər, adını daşıyan ünvanların görüntüləri əksini tapıb. Müəllifin dili və üslubuna toxunulmayıb.

"Ədəbiyyat yolçusu" Əbdürrəhim bəy Haqverdiyevin həm şəxsiyyəti, həm də pedaqoji, ədəbi və diplomatik fəaliyyəti barədə geniş, əhatəli məlumatlarla zəngindir. Albom-kitaba yazdığı ön söz əvəzində yazıçı-jurnalist Mustafa Çəmənli haqlı olaraq Əbdürrəhim bəyi mədəniyyətimizdə, incəsənətimizdə, ədəbiyyatımızda, təhsilimizdə, diplomatiyamızda bünövrə daşı olanlardan biri hesab edir. Qələmə aldığı əsərlərin qəhrəmanları kimi Əbdürrəhim bəy Haqverdiyevin özünün də həyatı keşməkeşli, iztirablarla dolu keçib. Nəşrdə yer verilən filologiya elmləri doktoru, professor Kamran Məmmədovun "Əmimin evində qalmaq... əzab-sitəm idi" başlıqlı məqaləsində bu böyük şəxsiyyətin ömrünün ilk çağlarından çəkdiyi acılar, mücadilələri, təhsil almaq üçün çəkdiyi zəhmət, məktəb illəri və digər xatirələri qələmə alınıb.

1870-ci il mayın 17-də Şuşa qalasının Ağbulaq kəndində dünyaya gəlişi sevincə, şadyanalığa səbəb olan bu bəy ailəsinin əziz xələf övladının uşaqlıq illəri bəxtəvərlik içərisində keçməyib. Üç yaşında ikən atası Əsəd bəy vəfat edib. Balaca Əbdürrəhim bəy atasının əmisi Əbdülkərim bəyin himayəsində yaşayıb. Əzazil əmisi arvadının verdiyi əziyyətlərə qatlaşıb. Əbdülkərim bəy öldürüldükdən sonra o evdə qalması daha da dözülməz olub. İkinci dəfə ailə qurmuş anası Hüsniyyənin yanına qaçıb. Atalığı onu öz oğlu kimi qəbul edib və qayğısına qalıb. Əbdürrəhim bəy Şuşada və Tiflisdə Realnı məktəbləri bitirib. Sonra Peterburqda Yol Mühəndisləri İnstitutunda oxuyub.

Albom-kitaba daxil edilmiş məqalələrdə Əbdürrəhim bəy Haqverdiyevin ziyalı kimi yetişməsindən, ədəbiyyat sahəsində ilk qələm təcrübələrindən başlayaraq ədib kimi tanınmasınadək bütün fəaliyyəti əksini tapıb. Diqqətə çatdırılıb ki, o, hələ Şuşa Realnı Məktəbində təhsil aldığı vaxtlarda teatra maraq göstərib. Əbdürrəhim bəy Haqverdiyev ədəbi fəaliyyətə də o zaman başlayıb. Mirzə Fətəli Axundzadənin təsiri ilə "Hacı Daşdəmir" adlı kiçik bir pyes yazıb. Peterburqda baxdığı Aleksandriyski teatrının tamaşalarının təsiri ilə yaradıcılığa marağı daha da artıb. Elə tələbəlik illərində "Yeyərsən qaz ətini, görərsən ləzzətini" və "Dağılan tifaq" əsərlərini qələmə alıb.

1899-cu ildə Azərbaycana qayıdan Əbdürrəhim bəy Haqverdiyev bir müddət Bakıda yaşayıb. O, həm müəllimliklə məşğul olub, həm də teatrlarda hazırlanan tamaşalara rejissorluq edib. Bədii yaradıcılığını da davam etdirib. Qələmə aldığı "Bəxtsiz cavan" və "Pəri-cadu" faciələri ilə milli dramaturgiyanı zənginləşdirib. "Həyat" qəzetində hekayələri və "Molla Nəsrəddin" jurnalında gizli imzalarla felyetonları, məzhəkələri dərc olunub. O, "Molla Nəsrəddin" jurnalında "Mozalan", "Lağlağı", "Ceyranəli", "Xortdan" və başqa imzalarla çıxış edib.

Yeni nəşrdə akademik Məmməd Arif Dadaşzadənin 25 dekabr 1970-ci ildə Əbdürrəhim bəy Haqverdiyevin 100 illik yubiley gecəsində oxunmuş "Dahiyanə sadəlik" başlıqlı məqaləsinə də yer verilib. Mədəniyyətimizin, teatrımızın və ədəbiyyatımızın tarixinə yeni səhifələr yazan Əbdürrəhim bəyi Məmməd Arif Dadaşzadə oxuculara belə tanıdıb: "O, mütənasib vücudu, səliqəli geyimi, qalın, yaraşıqlı və bir qədər də nurani saçları ilə uzaqdan diqqəti cəlb edirdi. Ləyaqətli, təsirli görkəmi ilə o, yazıçılarımız arasında dərhal seçilirdi. Bütün gənclər ona xüsusi hörmət bəsləyirdilər. Əlbəttə, bu hörmətin səbəbi yalnız ədibin zahiri görkəmi deyildi. Əbdürrəhim bəy Haqverdiyevin davranışı da, danışığı da, ürəyi də təmiz və gözəl idi. Asta-asta danışardı, şirin-şirin söhbət edərdi, hətta hirslənəndə də səsini ucaltmazdı".

Məqalədə diqqətə çatdırılıb ki, M.F.Axundzadə ənənələri əsasında inkişaf edən realist ədəbiyyatımızın, xüsusən dramaturgiyamızın tərəqqisində Haqverdiyevin rolu olduqca böyükdür.

"Əbədiyyət yolçusu" kitabına daxil edilən yazıların bir çoxu "Dahiyanə sadəlik"də olduğu kimi Əbdürrəhim bəy Haqverdiyevi oxuculara yaxından tanıdır. Çünki onları qələmə alanların çoxu Əbdürrəhim bəyi həyatda görmüşdü. Hüseyn Mamayevin "Kommunist" qəzetinin 16 may 1945-ci il tarixli sayında dərc olunmuş "Dayım haqqında xatirələrim"də olduğu kimi. Hüseyn Mamayev oxucuları uzaq illərə aparır: "1914-cü ilin yayı idi. Qarabağ əhalisi hər tərəfdən Şuşaya axışıb gəlmişdi. Yay klubunda Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" əsərini müəllifin rejissorluğu ilə tamaşaya qoymuşduq. Mən burada Fərhad rolunu ifa edirdim. Dayım Fərhadın tələbə paltarında səhnəyə gəldiyi anda məni daha çox sevirdi. Çünki o, bu vaxtlarda qəmli gəncliyini xatırlayırdı".

Albom-kitabda Əməkdar incəsənət xadimi, şair Abdulla Şaiqin Əbdürrəhim bəy Haqverdiyev barədə xatirələri "Ondan eşitdiyim lətifələri yazmış olsaydım..." başlığı ilə verilib. O, Əbdürrəhim bəylə ilk görüşlərini - 1902-ci ildə şəhər məktəbində tanış olmalarını və birlikdə çalışdıqları günləri yada salıb: "Tənəffüs zamanlarında müəllimlərə şirin lətifələr söyləyib güldürmək adəti idi. ...O, xalq həyatını, xalq ədəbiyyatını çox gözəl bilirdi. Ondan eşitdiyim lətifələri yazmış olsaydım, böyük bir kitab olardı". Yazı Abdulla Şaiqin 1973-cü ildə işıq üzü görmüş "Xatirələrim" adlı kitabından götürülüb.

Yubiley nəşrində Ceyhun Hacıbəyli, Yusif Vəzir Çəmənzəminli, Seyid Hüseyn, Hüseynqulu Sarabski, Mir Cəlal Paşayev, Cəfər Xəndan, Mikayıl Rəfili, Sidqi Ruhulla, Əli Nəzmi, Əfrasiyab Bədəlbəyli, Əziz Şərif və başqa tanınmışların Əbdürrəhim bəy Haqverdiyev haqqında dəyərli məqalələrinə yer verilib.

"Əbədiyyət yolçusu"nda yalnız Əbdürrəhim bəy Haqverdiyevin həyatı və çoxşaxəli fəaliyyəti əks olunmayıb. Onun həm də vətənpərvərliyi, millətsevərliyi diqqətə çatdırılıb. Əbdürrəhim bəy Haqverdiyevin əsərləri vətənə sevgi ruhundadır. O, istər məqalələrində, istərsə də bədii əsərlərində həyatı bütün gerçəklikləri ilə əks etdirirdi. Ona görə də qələmə aldıqları bu gün də aktualdır.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# ADA Universitetində Xarici Siyasət Proqramının növbəti mərhələsi başlayıb



İyunun 6-dan etibarən ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutu Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) ilə birgə əcnəbi diplomatlar üçün Xarici Siyasət Proqramının növbəti mərhələsinə başlayıb.

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, ümumilikdə 14 gənc, orta və yüksəkvəzifəli xarici diplomatların iştirak etdiyi proqramda Albaniya, Burundi, Çad, Konqo, Qazaxıstan, Qabon, Macarıstan, Mərakeş, Paraqvay, Rumıniya və Şri-Lanka da daxil olmaqla, 11 xarici ölkə təmsil edilir.

Proqram çərçivəsində ADA Universitetinin professor-müəllim heyəti, İnkişaf və Diplomatiya İnstitutunun direktor müavini və proqram direktorları, XİN və digər dövlət qurumlarından dəvət edilən qonaq məruzəçilər ölkəmizin tarixi, milli mənsubiyyəti, turizm potensialı və beynəlxalq müstəvidəki rolu, rəqəmsal və innovasiya sahəsindəki uğurları mövzusunda çıxış edəcəklər.

İştirakçılar ölkəmizin işğaldan azad edilmiş ərazilərin inkişafı ilə bağlı vizyonu, eləcə də Xəzər hövzəsində baş verən yeniliklər barədə ətraflı məlumatlandırılacaqlar. Bununla yanaşı, diplomatlar nitq və liderlik bacarıqları mövzusunda praktiki məşğələlərdə iştirak edəcəklər.

Qeyd edək ki, proqram çərçivəsində iştirakçılar bir sıra dövlət qurumlarını ziyarət edərək, həmin qurumların fəaliyyəti ilə yaxından tanış olacaq və Şuşaya səfər edərək işğaldan azad edilmiş ərazilərdəki vəziyyəti yerində müşahidə edəcəklər.

Proqramın hazırkı mərhələsi iyunun 18-də başa çatacaq.

# Azərbaycanın müdafiə naziri "Efes-2022" təlimini izləyəcək

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın dəvəti ilə "Efes-2022" beynəlxalq təlimini izləmək üçün qardaş ölkəyə işgüzar səfər edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində general-polkovnik Z.Həsənov Türkiyə Müdafiə Sənayesi Nazirliyinin təşkil etdiyi sərgini də ziyarət edəcək.

# Raket və artilleriya bölmələrində döyüş atışlı taktiki təlim keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi hazırlıq planına uyğun olaraq, Quru Qoşunlarının raket və artilleriya bölmələrinin özüyeriyən haubitsa heyətləri ilə döyüş atışlı taktiki təlim keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin planına əsasən, atəş dəstəyi həyata keçirəcək bölmələr daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılaraq ehtiyat atəş və start mövqelərini tutublar. Real döyüş şəraitinə uyğun keçirilən təlimdə şərti düşmən hədəflərinin sərrast atəşlə məhv edilməsi üzrə qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirilib.



# Beşbarmaq mistikası

## Peyğəmbərlərin görüş məkanı, müqəddəs ziyarətgah, tarixi istehkam...

*Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun mövcud durumu hələ ki, ürəkaçan deyil*











Paytaxtdan üzü şimala doğru gedəndə yollar, əsasən, düzənliklərlə dövrələnir. Lakin çox da uzaq olmayan məsafəni qət etdikdən sonra yolun solunda sanki səmaya uzanan əlin beş barmağını xatırladan dağ silsiləsi diqqəti çəkir. Magistral yoldan dağa kifayət qədər məsafə olsa da, əzəmətindən adama elə gəlir ki, bircə əlini uzatsan zirvəyə toxunub göylərə ucalacaqsan....

Söhbət Bakıdan cəmi 95 kilometrlik məsafədə yerləşən Beşbarmaq dağından gedir. Bu dağ haqqında çoxlu fərziyyələr, maraqlı tədqiqatlar var. Dağ silsiləsi eyni zamanda müqəddəs ziyarətgah hesab olunsa da, tarix və mədəniyyət nümunəsi kimi də önəm daşıyır. 2020-ci il iyunun 8-də isə Prezident İlham Əliyevin sərəncamına əsasən, həmin ərazidə "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu yaradılıb.

Bu gün qoruğun yaradılmasından 2 il ötür. Elə biz də bu minvalla yolumuzu qoruqdan salıb hazırkı vəziyyəti ilə maraqlandıq.

### Beşbarmağın tarixinə qısa nəzər

Beşbarmaq dağı və onun adının etimologiyası haqqında bir çox fərziyyələr, hekayələr mövcuddur. Bəlkə də onların heç biri həqiqəti əks etdirmir. Belə ki, yazılı mənbələrdə bu toponimin mənşəyi Bərməki tayfasının adı ilə izah olunur. Məsudinin "Qızıl yuyulan yer və cəvahirat mədənləri" əsərində "Bərməki" adı ilə tanınan daş səddən bəhs edilir. Abbasqulu ağa Bakıxanov isə "Gülüstani-İrəm" əsərində Quba nahiyəsinin cənubunda yerləşən Bərməki mahalı haqqında məlumat verir. Deyilənlərdən də aydın olur ki, bu dağlarda yaşayan Bərməki tayfasının adı ilə bağlı olan məkan sonralar dəyişikliklərə uğrayaraq Beşbarmaq ifadəsi kimi dillərdə dolaşıb.

Dağın müqəddəsliyi barədə isə Quranın "Kəhf" surəsində məlumat verilir. Bu surənin ayələrində Musa peyğəmbərin Xızır peyğəmbərlə görüşü haqqında qeydlər öz əksini tapıb. Burada Xızır peyğəmbərin adı çəkilməsə də, Quranın dilimizə edilən tərcümələrində və 1987-ci ildə Ankarada nəşr edilmiş "Dünya və islam tarixi" kitabında da Həzrəti Məhəmməd peyğəmbərdən Musa peyğəmbərin kiminlə görüşdüyü sual ediləndə həmin şəxsin Xızır olduğu yazılıb. İncildə "Musa qayası" adlandırılan Beşbarmaq dağı xalq arasında "Xızır baba", "Xıdır zində" piri kimi də tanınır.

Dağın tarixi əhəmiyyətinə gəlincə isə ilkin Orta əsr yazılı qaynaqlarda Beşbarmaq səddi haqqında bir sıra məlumatlar yer alır. Tarixçilər Yegişe və L.Parpetsinin qeydlərində bu müdafiə divarlarının albanlar və hunlar arasında salınmış istehkam olduğu nəzərə çatdırılır. V əsrin birinci yarısında Albaniya və Sasani dövlətləri tərəfindən inşa edilən səddin 452-ci ildə hunlar tərəfindən dağıdıldığı ehtimal edilir. Sədd dağıdıldıqdan sonra yerində yenisi inşa edilməyib, əvəzində isə Gilgilçay boyunca Şabran müdafiə qalası tikilib.

1925-ci ildə Beşbarmaq müdafiə səddinin qalıqlarını tədqiq edən arxeoloq Yevgeni Paxomov müəyyən etmişdir ki, bu tikili Abşerondan şimal hissədə yerləşib, sahil boyu 1,75 milometr uzunluğunda məsafəni əhatə edərək dənizə yaxın ərazidədir. Bu yerdə dağın ətəyindən başlayaraq bir-birindən 220 metr aralı iki paralel gil sədd uzanır. V əsrdə I Qubad onları Xəzər dənizi ilə Qafqaz dağlarının qolları arasındakı keçiddə, Beşbarmaq dağının başında tikdirib. Yazılı mənbələrin verdiyi məlumatlar onu deməyə əsas verir ki, Beşbarmaq dağı və ətraf əraziləri maddi mədəniyyət nümunəsi kimi xalqımızın sərvətlərindəndir.

### Müqəddəs görüş zirvəsində

Xəzərin sahili ilə getdiyimiz yoldan burulub Beşbarmaq dağına qalxan yoxuşla dağın ətəklərinə çatırıq. İndi qarşıda daha nəhəng sinəsi sıldırım qayalı bir dağ görünür. Lakin bura hələ yolun başlanğıcıdır...

Səmaya və dənizə eyni anda baxmaq hər nə qədər qəliz olsa da, Beşbarmaq dağının yamacından bu xariqənin seyrinə çıxmaq həqiqətdir. Bura elə bir hizada yerləşir ki, sanki buludlarla suyun uzanıb bir-birinə qovuşduğu o üfuq çılpaqlığı ilə göz qabağında canlanır. Buranın hər zaman bir qonağı da var. Dənizdən gələn bu həzin mehin ahəngi ilə ətrafdakı otlar titrəyir, saçlar dalğalanır, dualar səmaya qalxır. Burada saatlarca yorulmadan durmaq olar. Ancaq zirvəni də görmək lazımdır.

Dağın uca qatına çıxmağı qərara aldıqda bizə bu yolda qoruğun bələdçisi Mirsaleh Həsənov yoldaşlıq edir. Dik pillələrlə qalxdıqca hər addımda səmaya bir az da yaxınlaşırıq və yaz günəşinin hərarəti yuxarılarda daha çox alovlanmağa başlayır. Nəhayət, gəlib o müqəddəs zirvəyə çatırıq...

İçəri girdikdə fərqli bir enerjinin cərəyanı ilə qəflətən sükut çökür. Elə bu andaca Mirsaleh Həsənov söyləyir ki, diləkləri etmənin tam zamanıdır. Gözlər yumulur, arzu, istəklər bir-birini qabaqlayaraq, birləşib səmaya doğru yol alırlar.

Bu məqamın müqəddəsliyindən elə yerində söhbət açan Mirsaleh Həsənov bildirir ki, Nuhun dövründə dünya suyun içində olduğu vaxtda Qara dənizlə Xəzərin bu hissədə qovuşduğu söylənilir: "Həmin vaxtdan, su tədricən çəkildikdən sonra Musa ilə Xızır peyğəmbər məhz bu hissəyə gələrək görüşüb ibadətlər ediblər. Məqamın isə bura, yəni iki qayanın arası olduğu qeydlərə əsasən təxmin edilir. Bununla da Beşbarmaq müqəddəs ibadətgaha çevrilərək günümüzün inanclı yerlərindən biri hesab edilir".

Bələdçi qeyd edir ki, əvvəlcə iki qayanın arasındakı bu hissəyə çıxmaq, dayanıb ibadət etmək olduqca çətin idi. Xüsusilə dağın bir tərəfi maili olduğundan buraya qalxdıqda riskli vəziyyət yaranırmış. Otağın tikilməsi onun təşəbbüsü ilə olsa da, xeyirxah insanların ianələri hesabına işlər davam etdirilib və 2009-cu ildə tikinti tamamlanıb. Ziyarətgah otağının yanında iki qayanın təbii əmələ gətirdiyi boşluqda isə qadınlar üçün namaz otağı hazırlanıb.

Belə uca bir yerə asanlıqla çıxa bilməkdə qayaların üzərində tikilən pilləkənlər yardımçı olur. Mirsaleh Həsənov vurğulayır ki, 2000-ci ildən başlayaraq ardıcıl olaraq lazımi vasitə olan pillələrin tikilməsi yönündə tədbirlər görülüb. Son olaraq, əl tutacaqları 2017-ci ildə quraşdırılıb. Bununla da insanların ali məqama qalxıb ibadətlərini etməyə uyğun şərait yaradılıb. Buradakı əsas məsələ isə bütün bu işlərin məhz əhalinin, Beşbarmaq dağını ziyarətə gələn şəxslərin ianələri hesabına görülməsidir.

Ziyarətə gələnlərdən söhbət açmışkən, bələdçi deyir ki, ildən-ilə gələnlərin sayında azalmalar müşahidə edilir: "Əsasən, 2012-ci ildən etibarən bu halla daha çox rastlanılır. Həmin vaxtlarda gündəlik ziyarətçilərin sayı 5-6 minə qədər idisə, hazırda 10-15 nəfər səviyyəsinə enib. Həftəsonları sayda qismən artım olsa da, əvvəlki maraq hiss edilmir. Əslində, bu problemə bir yox, bir neçə nüans səbəb olub. İnsanlar arasında aparılan antitəbliğat, buradakı dilənçilərin gələn ziyarətçiləri narahat edib xoşagəlməz vəziyyət yaratması və digər məsələlər bir növ gələnləri "küsdürüb".

Beşbarmaq dağının soraqları xarici ölkələrə qədər yayılıb. Bunun nəticəsində də turistlərin seçim etdiyi dini inanc yerlərindəndir. Dağa ən çox gələn ziyarətçilər arasında ruslar, hindistanlılar və pakistanlılar yer alır. Yəhudilər isə Beşbarmaq dağına xüsusi rəğbətlə yanaşır, ölkəmizə səfərləri zamanı Xızır peyğəmbərin məqamına baş çəkmədən geri qayıtmırlar.

### Erkən Tuncdan yadigar məskən

Müqəddəs zirvədə dualarımızı edib gəldiyimiz yolla aşağı enirik. Beşbarmaq dağının qoruq statusunu aldıqdan sonra tarixi əhəmiyyətli yer kimi arxeoloji cəhətdən tədqiq olunmasına şərait yaranıb.

Öncəliklə onu bildirək ki, Erkən Orta əsrlər dövrünə aid Beşbarmaq dağına paralel müdafiə səddi "Xəzər sahil mühafizə konstruksiyaları" daxilində 2001-ci il oktyabrın 24-də UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan maddi-mədəni irsin ilkin siyahısına daxil edilib. Yəni bura müqəddəs bir məkan kimi əhəmiyyətindən savayı, əslində, Son Tunc - İlk Dəmir dövrünə aid yaşayış yeri, İlk Orta əsrlərə aid qala qalıqları, XV-XVII əsrlərə aid karvansara qalıqları ilə olduqca önəm kəsb edir. Məhz bu kimi amillər Beşbarmaq dağına diqqətin ayrılmasının nə qədər mühüm olduğunu aydın şəkildə göstərir.

2020-2021-ci illər ərzində dağın ətəyində arxeoloji qazıntılar aparılıb və bir sıra əhəmiyyətli nümunələr aşkar edilib. Qazıntılara rəhbərlik edən AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi işçisi Sevinc Hüseynova məlumat verir ki, qazıntılar həm 1-ci terrasda, həm də 2-ci terrasda aparılaraq nəticədə qala divarları, qala bürcləri və qala divarları daxilində yaşayış evləri aşkar edilib. Tədqiqatlar nəticəsində Orta əsrlərdə verilən məlumatlardan (4 qala bürcünün olduğunu qeyd edirdilər) fərqli olaraq, buradan birinci terrasda 4, ikinci terrasda isə 1 qala bürcü olmaqla, 5 qala bürcü tapılıb. Quruluşa gəldikdə, bu qala düzbucaqlı formada tikilib, şimal və şərq tərəflərdən dik qaya ilə, cənub və qərb tərəflərdən isə qala divarları ilə əhatə olunub. Qala divarları Erkən Orta əsrlərdə tikilsə də, xarici hücumlar nəticəsində dağıdılmış və yenidən bərpa edilmişdir. Zamanla qala divarlarındakı müşahidə edilən dəyişiklikləri onların tikintisindən də aydın izləmək olur.

Qala divarlarına bitişik evlərdə su tüngləri, təsərrüfat küplərinin hissələri və təndirlər də üzə çıxıb. Bunlar da onu deməyə əsas verir ki, təsərrüfat və sənətkarlıqdan geniş istifadə edilib. Tədqiqatçı vurğulayır ki, tapıntılar arasında Orta əsrlərə aid şirli və şirsiz keramika nümunələri tunc bəzək əşyaları (medalyon, üzük), dəmirdən hazırlanmış əşyalar da aşkar olunub. Bunlar arasında əsas diqqəti cəlb edən Erkən Tunc dövrünə aid olan saxsı qabların fraqmentləridir. Buna əsasən qeyd etmək olar ki, burada daha qədimdə, yəni Erkən Tunc dövründə yaşayış olub.

Sevinc Hüseynova həmçinin bildirir ki, tədqiqatlar Beşbarmaq dağından cənub tərəfdə də aparılıb. Nəticədə qalıqlardan məlum olub ki, tikili XIX-XX əsrin əvvəllərinə aiddir. Burada digər bir xüsusi məqam isə evlərin divarlarının tikintisində daha əvvəlki dövrlərə məxsus olan sənduqələrdən (qəbirüstü daş) tikinti materialı kimi istifadə olmasıdır. Tapılan həmin sənduqələrdən bir qismi isə 2-ci terrasda tikilmiş məscidin yanında qoyularaq nümayiş etdirilir.

Qeyd edək ki, hazırda tədqiqat işləri dayandırılıb, davam etdirilməsi gözlənilir. Son olaraq, arxeoloq xüsusilə diqqətə çatdırır ki, aparılan araşdırmalar Beşbarmaq dağının hələ Tunc dövründən etibarən müqəddəs məkan olduğu ehtimalını yaradır. Geriyə isə tədqiqatların nəticələri ilə həqiqətləri üzə çıxarmaq qalır.

### Beşbarmağa sahib çıxmağa gecikirik

Beşbarmaq dağının arxeoloji əhəmiyyətli hissələrinə üz tuturuq. Havalar istiləşdiyi üçün ilanların olması riski ərazidə hərəkəti bir qədər məhdudlaşdırır. Həqiqətən də ətrafdakı ot, kol-koslardan heç nə görünmürdü. Düşündük ki, ayaq dalayan otların arası ilə hələ çox getməli olacağıq.

Amma birdən qarşımızda otlar arasında olan qala divarlarını, evləri görüb duruxduq. Çətinliklə də olsa, müəyyənləşdirə bildik ki, bura arxeoloqun söylədiyi tarixi əhəmiyyətli divarların qalıqları olan ərazidir. Qala divarlarının ətrafında alaq otları məskən salıb. Evlərdə aşkarlanan təndirlər onların arasından güclə seçilir, saralıb qurumuş otlar isə imkan vermir ki, qalanın bürcləri görünsün. Digər tərəfdəki arxeoloji qalıqlara baxmağa isə boy-boy uzanıb arasında ilanların gəzişdiyi alaqlar mane olur. Şahidlik etdiyimiz mənzərə heç də xoş təəssürat yaratmır.

Ümumiyyətlə, yenicə aşkar edilən tarixi sərvətə belə yanaşma doğru sayıla bilməz. Nəticədə bu gün qoruğun yaradılmasından 2 il ötür, ancaq məlum olan odur ki, görülən işə də dəyər verilməyib.

Prezidentin sərəncamına əsasən, "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu yaradıldığı gündən etibarən Dövlət Turizm Agentliyi, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Milli Elmlər Akademiyası və Siyəzən Rayon İcra Hakimiyyəti ilə birlikdə iki ay müddətində qoruğun sərhədini və mühafizə zonasını müəyyənləşdirib təsdiq etməli idilər. Lakin hələ də qoruğun sərhəd müəyyənləşdirilməyib.

Hətta bir faktı da qeyd etmək yerinə düşər ki, 2 il ərzində qoruğun işçilərinin inzibati binası belə tikilməyib. Direktor, müavin və digər nümayəndələr hər dəfə qoruğa gəlmək üçün 95 kilometrlik yolu qət edib həmin gün də geri qayıtmalı olurlar.

Bütün dünya hazırda Azərbaycanın iqtisadi qüdrətinə şahidlik edir. Vətən müharibəsindəki zəfərdən sonra Azərbaycan yalnız öz qüdrətinə 8 aya beynəlxalq hava limanı tikir, bir ilə Füzulidən Şuşaya Zəfər yolu çəkir və ən əsası il yarım müddətə müasir "ağıllı kənd" layihəsini reallaşdırıb Böyük qayıdışa start verir, amma bəzi dövlət qurumları 2 il müddətinə Beşbarmaq qoruğunun sərhəddini müəyyənləşdirə bilmir...

Hər halda inanmaq istərdik ki, tezliklə bu məsələ həllini tapacaq və növbəti reportajımızda bu ürəkdağlayan mənzərəyə şahidlik etməyəcəyik.

### Yamac paraşütü ilə Beşbarmaq dağında

Birdən dağın ətəklərindən havaya qalxan paraşüt diqqətimizi çəkir. Sən demə, Beşbarmaq dağı qoruq və müqəddəs məkan olmaqla yanaşı, həm də səmaya yüksələcək yerin başlanğıcıdır. Yəni ərazi sahib olduğu imkanlarla turizm baxımından da kifayət qədər uğurlu məkandır. Turizm Agentliyindən də bildirilmişdir ki, "Beşbarmaq dağı" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun ərazisinin abadlaşdırılması yönündə bir çox layihələr planlaşdırılıb. Ehtimal edilir ki, burada yaradılacaq şəraitlə geniş insan axınına nail olunacaq. Əslində, məkanın təqdim etdiyi imkanlar və xüsusilə paytaxta yaxın ərazidə yerləşməsi deyilənləri təsdiq edir, geriyə isə verilən vədləri reallaşdırmaq qalır.

Uçuşların edildiyi vaxtda həmin istiqamətə gedib paraşütçü Fərid Məmmədovla həmsöhbət oluruq. O söyləyir ki, buranı kəşf etməzdən əvvəl uçuşları Qubada həyata keçirirlərmiş: "Beşbarmaq dağının küləyindən və mənzərəsindən qısa zaman öncəyə qədər xəbərsiz idik. Burada 450 metr hündürlükdən qalxış edirik, təyin edilən trayektoriya ilə uçuş etdikdən sonra enişə doğru istiqamətlənirik. Havada 6-8 dəqiqə qalaraq dənizin sahili ilə enişə hazırlaşırıq".

Fərid söhbətini bitirib yoldaşları ilə birlikdə uçuşu həyata keçirmək üçün hazırlıq görməyə başlayır.

*Qaçırlar, qaçırlar və göyə ucalırlar...*
*Paraşütçülərin quştək səmada süzməsinə baxa-baxa biz də Beşbarmaq dağına səfərimizi yekunlaşdırırıq...*

**Aydan XƏLİLOVA,**
**"Azərbaycan"**















# Odlar ölkəsində Sürət zirvəsində




# BAKIDA 6-CI "F-1" HƏYƏCANI YAŞANIR



**Bakı ilk dəfə deyil ki, "Formula-1" yarışına evsahibliyi edir. Şəhər indiyədək 5 dəfə - 2016-2021-ci illərdə bolid pilotları arasında sürət mübarizəsinin şahidi olmuşdur. İyunun 10-12-də "Formula-1" üzrə 73-cü dünya çempionatının 8-ci mərhələsi - Azərbaycan Qran-prisi motoidman fanatlarının diqqətini özünə cəlb edəcək.**

## Azərbaycan ən mükəmməl idman infrastrukturuna malikdir

"Formula-1" də sıradan bir yarış deyil, dairəvi və sürətli avtoyürüş üzrə dünya çempionatıdır. Hər il keçirilən bu yarışın müxtəlif şəhərlərdə Qran-pri mərhələləri təşkil olunur. Bu mərhələlərdə toplanan xallara əsasən, pilotlar və komandalar ilin sonunda, çempionluq titulu qazanırlar. Mübarizə aparan iştirakçıların sayı digər idman tədbirlərindən az olsa da, bu avtomobil yarışı tamaşaçı sayına görə yalnız futbol üzrə dünya çempionatından və Olimpiya Oyunlarından geri qalır. Hesablamalara görə, "Formula-1"in dünyadakı auditoriyası təxminən 500 milyon nəfərdir.

"Formula-1"də gündəlik həyatda görmədiyimiz və xüsusi olaraq bu idman növü üçün hazırlanan avtomobillər yarışır. Bolid adlandırılan müasir "Formula-1" avtomobilləri bir sıra özəllikləri ilə fərqlənir. Onlar təkadamlıq olur, üstəlik sürücü yeri və təkərləri açıqdadır. Bu avtomobillərin yürüşü üçün tələblərə cavab verən trekin olması vacib şərtdir. Xüsusi olaraq inşa olunmuş Bakı Şəhər Halqası "Formula-1" təqviminin ən gözəl mübarizə meydanlarından biridir. Çünki Bakı mübarizəsində pilotlar xüsusi avtodromda deyil, məhz şəhərin küçələrində yarışırlar. Qeyd edək ki, pilotlar həmişə Bakı Şəhər Halqası barədə yüksək fikirlər söyləyiblər. Çünki Bakıdakı mübarizə meydanı çempionatın ən uzun və düz xətlərindən birinə sahib qeyri-adi şəhər trasıdır. Nadir xüsusiyyətlərə malik Bakı Şəhər Halqası elə qurulub ki, yarış zamanı pilotlar və milyonlarla televiziya tamaşaçısı paytaxtımızın gözəlliyini, tarixi və müasir memarlıq abidələrini, bir sözlə ecazkar bir mənzərəni görə bilirlər.

Beləliklə, Bakı dünyanın ən böyük idman tədbirlərindən birini qəbul etməyə hazırdır. Pilotlar iyunun 10-u və 11-də sərbəst yürüşlər və sıralama turları keçirəcək, iyunun 12-də isə trasa çıxıb məharətlərini nümayiş etdirəcəklər. Yarış bu dəfə də "Formula-1" mövsümünün ən maraqlı tədbirlərindən olacaq. Azərbaycan bu yarışı yüksək səviyyədə təşkil etməklə mükəmməl evsahibliyinin növbəti nümunəsini yaradacaq. Yarış iştirakçılarına uğurlar olsun!

Beləcə Odlar yurdu beynəlxalq idman ictimaiyyətinin ən çox maraqlandığı məkan olacaq.

Ölkəmiz milli müstəqilliyin bərpasından bəri evsahibi kimi mötəbər beynəlxalq idman tədbirlərinin təşkilində yetərli təcrübə toplayıb. Beynəlxalq turnirlərə hazırlıq işləri aparılarkən səlahiyyətli orqanlar vahid komanda kimi çıxış edir, idmançıların və azarkeşlərin rahatlığını təmin etmək üçün bütün lazımi tədbirləri görür. Təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilir. Ölkədən ayrılan qonaqlar vətənlərinə xoş xatirələr, zəngin təəssürat aparırlar. Ona görə də Avropa və Beynəlxalq Olimpiya komitələrinin, beynəlxalq federasiyaların rəhbərləri Azərbaycanın təşkilatçılıq səviyyəsini həmişə yüksək qiymətləndirir. Çünki istənilən beynəlxalq idman tədbiri zamanı həm idmançıları beynəlxalq standartlar çərçivəsində qarşılamaq lazımdır, həm də yarışı izləmək üçün ölkəyə gələn çoxsaylı xarici qonağın yerləşə bilməsi üçün müəyyən infrastruktur olmalıdır.

Azərbaycan artıq uzun illərdir ki, beynəlxalq tədbirlərin, o cümlədən idman yarışlarının keçirilməsində möhtəşəm nümunələr yaradır. İndiyədək Azərbaycanda I Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, UEFA Avropa Liqasının finalı, futbol üzrə Avropa çempionatının final mərhələsinin 4 qarşılaşması kimi böyük idman tədbirləri keçirilib. Prezident İlham Əliyevin inkişaf və quruculuq siyasətinin nəticəsi olaraq Bakıda yaradılan möhtəşəm infrastruktur bu yarışların hər birini ən mükəmməl şəkildə təşkil etməyə imkan verib. Həm də təsdiq olunub ki, Bakı şəhəri və eləcə də regionlarımız istənilən sayda xarici qonağı qəbul edə bilər.

Azərbaycan bu idman yarışlarına ən ideal şəkildə evsahibliyi etməklə Avropanın idman tarixinə öz möhürünü vurub, yeni və ideal təşkilatçılıq nümunələri yaradıb. Ölkəmiz bütün dünyaya evsahibliyinin və yüksək təşkilatçılığın necə olduğunu göstərib.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*





# "Formula-1" gündəliyi

## Azərbaycan Qran-prisi "Netflix"də




"Formula-1" yarışlarından bəhs edən, qısa zamanda böyük tamaşaçı marağı qazanmış "Drive to survive" sənədli serialı ABŞ-ın məşhur "Netflix" onlayn platformasında yayımlanır. Serialın 5-ci mövsümündə Bakı yarışının həyəcanlı anları yer alacaq. Elə bunun üçün də şirkət nümayəndələri 2022-ci il "Formula-1" Azərbaycan Qran-prisi çərçivəsində ölkəmizə səfər edəcəklər.

Həyəcanverici hadisələrlə yaddaqalan öncəki Bakı yarışlarının anbaan görüntüləri məhz bu serialda yer alıb. 2018-ci ildə "Red Bull" komandasının pilotlarının məşhur toqquşması, 2021-ci ildə Maks Verstappenin yarışın bitməsinə üç dövrə qalmış qəzaya uğraması, Luis Hemiltonun yarışın restartındakı böyük səhvi kimi dramatik səhnələr Bakı yarışını daha da yaddaqalan edib.

Buraxdığı səhvdən sonra Luis Hamiltonun "Mersedes"in komanda rəhbəri Toto Vulf ilə söhbət zamanı söylədiyi "Bakı yuxularıma kabus kimi girir" sözləri "Drive to survive" izləyicilərinin diqqətindən qaçmayıb.

Serial yayımlandığı dörd mövsüm ərzində azarkeşlərə "Formula-1" yarışlarının maraqlı məqamlarını, komanda və pilotların real hazırlıq prosesini, həyəcanlı görüntülərini, bir sözlə, "F1" ruhunu daha yaxından hiss etdirməyi bacarıb.

## "F-1"də uşaqlar da unudulmayıb



"Formula-1" Azərbaycan Qran-prisində uşaqlar da unudulmayıb, onlar üçün xüsusi zona hazırlanıb. Dənizkənarı Milli Park ərazisində uşaqlar və yeniyetmələr üçün "Game Park" quraşdırılıb. Burada "Upside Down" illüziya otağı, "Climbing Wall" dırmanma divarı, "Helmet Bouncy Castle" batut qurğusu fəaliyyət göstərəcək.

Bundan əlavə, azyaşlılar "Trampoline" qurğusunda fərdi yarış keçirə, "Have a ride"də isə "Formula-1" yarış halqasının kiçik ölçüdə quraşdırılmış hissəsində bacarıqlarını nümayiş etdirə biləcəklər.

## Favoritlər kimlərdir?



"William Hill" bukmeker kontoru "Formula-1" Azərbaycan Qran-prisində qələbə üçün mərclərin kursunu dərc edib. Bukmekerlər "Red Bull Racing"in pilotu Maks Ferstappeni Bakı yürüşlərinin favoriti hesab edirlər. Onun əsas rəqibi Şarl Leklerin şansı isə bir qədər aşağı dəyərləndirilir.

Monako mərhələsinin qalibi Serxio Peresin növbəti yürüşdə qələbə əmsalının necə dəyişməsi maraqlıdır. Əgər iki həftə əvvəl Serxionun qələbəsi üçün mərclər 19.00 əmsalı ilə qəbul edilirdisə, indi onun Bakıda qələbə şansı 6.50 kimi dəyərləndirilir.

Mövsümün 7-ci mərhələsindən sonra Maks Ferstappenin Şarl Lekler üzərində üstünlüyü 9 xaladək artıb. Onu çempionatda qələbə şansı "Ferrari" pilotunun bütün şanslarından bir yarım dəfə yuxarı dəyərləndirilir.

Bukmekerlərin fikrincə, Serxio Peres Corc Rasseli şəxsi hesabda 26 xal üstələməsinə baxmayaraq, meksikalının titula şansı britaniyalının şansına bərabərdir.

## Valtteri Bottas Bakıda qələbəyə inanır



"Formula-1" komandaları həftəsonu Bakıda keçiriləcək Azərbaycan Qran-prisinə hazırlaşırlar. Artıq bəzi pilotlar Bakıdakı yarış haqda proqnozları ilə diqqət çəkməyə başlayıblar. "Alfa Romeo"nun pilotu Valtteri Bottas yarışın onlar üçün uğurlu keçəcəyinə inandığını söyləyib: "Bizim bolidin texniki keyfiyyətləri Monakodakı döngələrə uyğun deyil. Bakıdakı trasın döngələri isə standartdır. Orada Monakodakı kimi sərt döngələr yoxdur. Yalnız İçərişəhər ətrafında sərt döngəyə rast gəlirik. Bu da bizim xeyrimizə işləyəcək".

Qeyd edək ki, Finlandiyalı pilot Monako Qran-Prisini 9-cu sırada başa vurub.

## Endryu Şovlin çətinliklərdən narahatdır



"Formula-1" çempionatının "Mercedes" komandasının baş yürüş mühəndisi Endryu Şovlin komandanın Monako mərhələsinin nəticəsində özünü göstərən çətinliklərin Bakı trasında da olacağından ehtiyat edir. Aralıq dənizi knyazlığının şəhər trasında Corc Rasselə və Luis Hamiltona mövsümün əvvəlində olduğu kimi, eyni problem maneçilik törədirdi. Barselona mərhələsində "Mercedes" komandası "Ferrari" və "Red Bull Racing"ə xeyli yaxın idi və orada bolidin destabilləşməsi daha az nəzərə çarpırdı. Lakin Monakoda problem geri döndü.

Endryu Şovlin deyib: "Birmənalı olaraq, Monakoda bolidin Barselona ilə müqayisədə daha effektli işləməsinə nail olmaq bizə xeyli çətin idi. İspaniyada biz yaxşı yürüş tempi nümayiş etdirdik, baxmayaraq ki, "Red Bull" və "Ferrari" komandalarından geriləməni azaltmaq üçün hələ çox iş görməli olacağımızı başa düşürdük. Monakoda çətinliklər bu tras üçün xarakterik sayılan hamar olmayan səthlə əlaqədar idi, orada da bolidin klirensi (yolun səthi ilə avtomobilin mərkəzi hissəsinin ən alçaq nöqtəsi arasında məsafə) ilə bağlı problemlərimiz oldu. Bu, pilotların əminliyində özünü büruzə verirdi, yüksək sürəti saxlamaq onlar üçün çətin idi. Bakıda da bizi analoji çətinliklər gözləyə bilər. Biz işləməkdə davam edir, avtomobilin hərəkət tərzini yaxşılaşdırmağa çalışırıq".

## Ən çox qazanan pilotlar

"Formula-1" pilotlarının cari mövsüm üçün məvacibləri açıqlanıb. Böyük Britaniyanın mətbuatının tərtib etdiyi siyahıya "Red Bull" və "Mercedes" komandalarının pilotları başçılıq edirlər. Ötən il dünya çempionu olan Maks Ferstappen və yeddiqat dünya çempionu Luis Hamilton hərəyə 40 milyon funt sterlinq məvacib alırlar. Üçüncü pillədə qərarlaşan "Alpin" komandasının pilotu Fernando Alonsonun illik gəliri 15 milyon funt sterlinqdir. Bu mövsüm Mühəndislər Kubokuna başçılıq edən "Ferrari" isə pilotlarına heç də çox pul ödəmir. Bu siyahıda yeddinci pillədə qərarlaşan Şarl Lekler 9, səkkizinci yeri tutan Karlos Sayns 7 milyon funt sterlinq maaş alırlar. Bu mənada Luis Hamiltonun komanda yoldaşı Corc Rasseli də fərqləndirmək olar. Şəxsi birincilikdə L.Hamiltondan öndə olan C.Rassell 4 milyon funt sterlinq qazancla 13-cü sırada qərarlaşıb.

Siyahıda sonuncu yeri isə tarixdə ilk dəfə Çini “Formula 1”də təmsil edən pilot tutur. "Alfa Tauri"nin sürücüsü Yuki Tsunoda isə ilə təxminən 365 min funt sterlinq qazanır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Şəhər Halqasında sürət zirvəsi

**Bakı Şəhər Halqasında indiyə qədər heç bir pilot 2 dəfə qalib gələ bilməyib. 2019-cu ilin qalibi Bottas ondan cəmi bir il əvvəl yarışda təkəri partladığı üçün qələbədən məhrum olmuşdu. Həmin il zəfər qazanan Hamiltonun da 1 il əvvəl başına qəribə hadisələr gəlmiş və qalib olmamışdı. İndiyə qədər burada 3 dəfə "Mercedes", 2 dəfə isə "Red Bull" sürücüləri finiş xəttini hamıdan tez keçib.**

| İl | Pilot | Komanda |
|---|---|---|
| 2016 | Niko Rosberq | Mercedes |
| 2017 | Daniel Rikkardo | Red Bull |
| 2018 | Luis Hamilton | Mercedes |
| 2019 | Valtteri Bottas | Mercedes |
| 2021 | Serxio Peres | Red Bull |

**Bu mövsüm qalib adı uğrunda mübarizə aparan "Red Bull" və "Ferrari"nin 4 pilotundan üçü burada daha əvvəl qalib gəlməyib. Bakıdakı 5 yarışda ümumilikdə 9 nəfər podiuma çıxa bilib. Onlardan yeddisi bu il də yarışacaq və bu statistikada irəliləmək şansını əldə edəcəklər.**

| Yer | Pilot | Podium |
|---|---|---|
| 1 | Serxio Peres | 3 |
| 2 | Sebastyan Fettel | 3 |
| 3 | Luis Hamilton | 2 |
| 4 | Valtteri Bottas | 2 |
| 5 | Niko Rosberq | 1 |

**Bakıda son 5 yarışda 22 müxtəlif pilot xal qazana bilib ki, onlardan 16-nın bu il də xal hesabını artırmaq imkanı olacaq. Liderlik isə bütün yarışları ilk dördlükdə başa vuran Fetteldədir. Alman sürücü Bakıda qələbə qazanmasa da, çox sabit çıxışı ilə seçilib.**

| Yer | Sürücü | Xal |
|---|---|---|
| 1 | Sebastyan Fettel | 75 |
| 2 | Luis Hamilton | 63 |
| 3 | Serxio Peres | 63 |
| 4 | Valtteri Bottas | 51 |
| 5 | Daniel Rikkardo | 33 |

# BƏLANIN AĞI-QARASI OLMUR




*Dünyada "ağ ölüm" kimi "ad çıxarmış" narkomaniya ən böyük bəşəri bəlalardan biridir. Bəla isə ölüm, gözyaşı, bədbəxtlik gətirir...*

Çox təəssüflər olsun ki, narkomaniyaya mübtəla olanların əksəriyyəti gələcəyimiz olan yeniyetmə və gənclərdir. Nə qədər ürək ağrıdan fakt olsa da, qeyd etməliyik ki, narkomanlar arasında qızlar və qadınlar da var. Heç kimə sirr deyil ki, adətən bu vərdişlərə daha çox çətinlik görməyən, yüngül həyat tərzi keçirən, həyatın mənasını əyləncədə görən, bütün arzuları, istəkləri valideynləri tərəfindən qeyd-şərtsiz həyata keçirilən ailələrin övladları daha çox aludə olurlar. Bu cür insanlar təkcə mənsub olduqları ailənin baş bəlası deyil, onlara yaxın olan insanları da "zəhərləyib" özlərinə tay etməklə bütövlükdə cəmiyyət üçün də bir təhlükə yaradırlar. Təssüflər olsun ki, narkomaniyaya qarşı mübarizə tədbirləri nə qədər gücləndirilsə də, son zamanlar ona tutulanların sayı artır. Amma başa düşmürlər ki, narkomaniya ilk növbədə ağlın, zəif iradənin bəlası, ruhun xəstəliyidir. Narkomaniya insanın mənəvi və fiziki ölümüdür. Narkomaniyadan danışılanda ilk olaraq göz önünə ailələrin dağılması, körpələrin valideyn sevgisinə həsrət qalması, dava-dalaş, əqli və fiziki cəhətdən şikəst və bədbəxt doğulmuş uşaqların nakam taleyi, anaların gözyaşı, bir sözlə, talesiz insanlar gəlir. Narkomanlıq şəxsiyyətin aşınması, insanın özünə etdiyi hörmətsizliyin pik həddi, ölümə, bədbəxtliyə gedən yolun başlanğıcıdır.

İlk vaxtlar "müştərisinə" yuxu kimi xoş təsir göstərib onu ağuşuna alan, özünə asılılıq yaradan narkotik maddə mərkəzi sinir sisteminə spesifik təsir göstərərək tez bir zamanda insanın ağlını əlindən alıb onu "ram" edir. Narkotik asılılığın əsirinə çevrilib manqurtlaşmış "müştəri"də abstinensiya halı çox əziyyətli olduğuna görə yeni doza əldə etmək üçün bütün mümkün olan və olmayan vasitələrdən istifadə etmək məcburiyyətində qalır. Narkotikdən asılılıq bələlərini oğurluqdan tutmuş ən qatı cinayətə qədər sürükləyə bilir.

Mütəxəssislərin fikrincə, narkotikdən istifadə edənlərin əksəriyyəti gənc olduqları üçün HİV və ya hepatit C-yə cinsi yolla asanlıqla yoluxurlar. Ümumiyyətlə, narkotik asılılığı olanlarda beyin və mərkəzi sinir sistemində pozulma halları baş verir ki, bu da erkən ağlını itirmə, şüur itkisi, yuxusuzluq, iflic, sayıqlama, hallüsinasiya, zəka və yaddaş pozğunluqları yaradır.

Narkoloq həkimlər bildirirlər ki, narkotik maddələri qəbul edən şəxslərin həzm sistemində də ciddi fəsadlar yaranır. Ürəkbulanma, qusma, qarın ağrıları, qəbizlik, ishal, mədə və bağırsaq pozuntuları, qanama, böyrəklərdə böyük qəza və tıxanmalar, qaraciyərdə çatışmazlıq, yağlanma, sərtləşmə (sirroz) problemi özünü göstərir.

Ekspertlərin hesablamalarına görə, narkotiklərin qanunsuz dövriyyəsindən hər il yüz milyardlarla dollar gəlir əldə edilir. BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin hesablamalarına əsasən, dünyada narkotik alveri üçüncü ən çox gəlir gətirən sahə hesab olunur. İnsanların həyatını heçə sayıb yalnız milyonlarını artırmaq barədə düşünən narkobaronlar öz iyrənc biznes şəbəkələrini genişləndirmək üçün insan "ovu"na çıxırlar. Bunun nəticəsi olaraq dünyada milyonlarla, ölkəmizdə minlərlə insan bu bəladan əziyyət çəkir. Fikirlərimizi rəqəmlərin dili ilə ifadə etsək, bunun heç də kiçik olmadığına, hətta təəccüb doğura bilən rəqəm olduğuna şahidlik edərik. Ölkəmizdə 2021-ci ilin son hesabatına görə, 34602 nəfər narkotik asılılığı olan şəxs qeydə alınıb. O cümlədən onlardan 27106 nəfər dispanser qeydiyyatında, 7496 nəfər isə profilaktiki qeydiyyatda olanlardır. 360 narkomanın kimliyi isə anonim saxlanılır. Acınacaqlı haldır ki, narkomanlar içərisində qeydə alınanların 556 nəfərini qadınlar təşkil edir. Xatırladaq ki, uçotda olanların 5603 nəfəri yeni qeydiyyata götürülənlərdir. Mütəxəssislər hesab edirlər ki, belə bir sürətli artım yaxın gələcəkdə ictimai fəlakətə gətirib çıxara bilər. Ən acınacaqlısı da budur ki, gənclər və yeniyetmələr arasında narkotikaya aludəçilik halları yüksələn xətlə artır. Bugünkü gənclik sabahımız, gələcəyimizdir. Dövlətin, millətin, xalqın gələcəyi sağlam, etibarlı gənclikdən çox asılıdır. Nə xoş ki, dövlətimizin bu yöndə apardığı maarifləndirici tədbirlər, ardıcıl olaraq görülən məqsədyönlü iş nəticəsində səhvini anlayıb nörmal həyata qayıdanlar da az deyil. 4789 nəfər bu bəladan xilas olaraq normal həyata qayıtdıqları üçün qeydiyyatdan çıxarılıblar.

Dövlət narkomaniyaya qarşı mübarizəni gücləndirir. Bunun üçün maarifləndirmə, profilaktiki tədbirlərlə yanaşı, sərtləşdirici tədbirlər də görülməkdədir. Dövlət başçısı narkotik maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizənin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə, Cinayət-Prosessual Məcəlləsinə, İnzibati Xətalar Məcəlləsinə, "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikası Qanununa və bir sıra digər qanunvericilik aktlarına dəyişikliklərin edilməsi barədə normativ-hüquqi aktları imzalayıb. Dəyişikliyə əsasən, narkotik vasitələrin və ya psixotrop maddələrin xüsusilə külli miqdarda qanunsuz dövriyyəsinə görə məsuliyyət nəzərdə tutan yeni maddə əlavə edilir və bu əməlin törədilməsinə görə on beş ilədək azadlıqdan məhrumetmə növündə sanksiya müəyyən olunur. Həmçinin satış məqsədi olmadan külli miqdarda narkotik vasitələri və ya psixotrop maddələri əldə etmə, saxlama, hazırlama, emal etmə, daşımaya görə məsuliyyət əhəmiyyətli dərəcədə sərtləşdirilir. Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin kütləvi informasiya vasitələrindən, o cümlədən internet informasiya ehtiyatlarından və ya informasiya-telekommunikasiya şəbəkələrindən istifadə etməklə törədilməsi isə yeni ağırlaşdırıcı hal kimi müəyyən edilib. Bundan əlavə, tərkibində narkotik maddələr olan bitkilərin əldə edilməsi, saxlanılması, daşınması ilə bağlı məsuliyyəti müəyyənləşdirən normalar təkmilləşdirilib.

Lakin bundan da vacibi odur ki, qədrinizi bilin, özünüzü sevin. Sağlamlığınızın qayğısına qalın. Səhvsiz insan olmur. Səhv edib onu anlamaq isə ağıllı insanlara mənsub olan xüsusiyyətdir. Heç kimə xoşbəxtlik gətirməyən bu bəlaya "yox" deməyi bacarın. Ziyanın yarısından qayıtmaq da xeyirdir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Çin yaratdığı möcüzələr sırasına daha birini əlavə etmək istəyir

Dünya iqtisadiyyatının nəhənglərindən biri olan Çin ixtiraları, yenilikləri ilə hər zaman diqqətləri cəlb edib. Bəşəriyyəti təhdid edən qlobal böhranların yaratdığı fəsadlara rəğmən ölkə yenə də öz möcüzələri sırasına daha birini əlavə etmək istəyir.



Çin Xalq Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi Si Cinpin insan və təbiətin harmonik şəkildə yaşaya biləcəyi "Modern Çin"in qurulması, habelə kollektiv şəkildə saf mühitin yaradılmasına daha böyük töhfələr verilməsi üçün səy göstərməyə çağırıb.

## İqlim dəyişikliyi ilə mübarizə

Ölkə rəhbəri bu çağırışla Çinin şimal-şərqində yerləşən Lyaonin əyalətinin paytaxtı Şenyanda keçirilən Ümumdünya Ətraf Mühitin Mühafizəsi Günü ilə bağlı milli tədbirin iştirakçılarına təbrik məktubunda müraciət edib.

Si Cinpin vurğulayıb ki, ekoloji mühit bəşəriyyətin yaşaması və inkişafı üçün fundamental əhəmiyyət kəsb edir və əlverişli ekoloji vəziyyətin qorunub saxlanması bütün ölkələrin xalqlarının ümumi istəklərinə cavab verir. Çin ekoloji tərəqqiyə böyük əhəmiyyət verir və partiyanın 18-ci Ümumçin qurultayından sonra ötən müddət ərzində fundamental, qabaqcıl və uzunmüddətli iş görüb. Bu fəaliyyət nəticəsində ölkədə tarixi, dönüşlü və hər şeyi əhatə edən dəyişikliklər baş verib.

"Sinxua" İnformasiya Agentliyi ölkə liderinə istinadən xəbər verir ki, Çin ekoloji tərəqqiyə yardımçı olmaq, iqtisadi və sosial inkişafın hərtərəfli "yaşıl" transformasiyasını təşviq etmək, çirklənməyə nəzarət, ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizə üçün səyləri əlaqələndirmək üçün strateji qətiyyətini qoruyacaq.

## Mavi səma, yaşıl ot, saf sular

Çin lideri gələcək nəsillərə mavi səma, yaşıl ot və təmiz suları olan gözəl bir ölkə bəxş etmək məqsədilə bütün cəmiyyəti ətraf mühitin qorunması üçün birgə və qətiyyətli addımlar atmağa çağırıb.

ÇKP MK Siyasi Bürosunun Daimi Komitəsinin üzvü, Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Xan Çjen tədbirin açılış mərasimində hərtərəfli "yaşıl" transformasiyanı dərinləşdirmək, habelə ətraf mühitin mühafizəsi və iqtisadi inkişafda əlaqələndirilmiş irəliləyişə nail olmaq üçün səylər göstərməyə çağırıb.

Çin rəsmisi bildirib ki, Pekin enerji təhlükəsizliyini, təchizat zəncirini və ərzaq təhlükəsizliyini, eləcə də insanların normal həyatını təmin etməklə yanaşı, rasional və nizamlı şəkildə karbon emissiyalarının tələb olunan səviyyəsinə və karbon neytrallığına nail olmağa çalışacaq.

Bundan əlavə, Baş nazirin müavini bütün planet sakinlərinin mənafeyi naminə qlobal səviyyədə ekoloji tərəqqi və davamlı inkişafa nail olmaq üçün birgə səylərin vacibliyini vurğulayıb.

Qeyd edək ki, 2017-ci ildən bəri Çində Ümumdünya Ətraf Mühit Gününə həsr olunmuş ənənəvi milli tədbir təşkil edilir. Bu il toplantı "Birgə təmiz və gözəl dünya quraq" şüarı altında keçirilir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


Azercell

## abunəçilərinin nəzərinə

12 iyul 2022-ci il tarixdən etibarən "Azercell Telekom" MMC-nin fakturalı xətt sistemində abunəçilərə təqdim edilən "Bizimkilər" və "Hər Yerə" tarif paketlərinə yeni qoşulmalar dayandırılacaq. Həmin paketlərə göstərilən tarixədək qoşulan abunəçilər digər tarif paketinə keçid etmədikləri təqdirdə istifadəyə davam edə biləcəklər.

**Qeyd: abunəçilər göstərilən dəyişikliklər, müvafiq tarif paketləri və mövcud tarif paketlərinin dəyişdirilməsi şərtləri barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.**


## "Azərişıq" ASC Zaqatala rayonu ərazisində yerləşən 110/35/10 kV-luq "Zaqatala" yarımstansiyasının 2x25 MVA gücündə yenidən qurulması işlərinin satın alınması məqsədilə **açıq tender elan edir**

Tender 1 (bir) LOT üzrə keçirilir:
LOT-1: Zaqatala rayonu ərazisində yerləşən 110/35/10 kV-luq "Zaqatala" yarımstansiyasının 2x25 MVA gücündə yenidən qurulması işlərinin satın alınması.

**İştirak haqqı - 500 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, M.Əliyev küçəsi, 130 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Namiq Heybətov (telefon: 440-39-93 daxili (92-19))
namiq.heybetov@azerishiq.az

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə;*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış;*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təklifin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, analoji işlərdə təcrübəsi haqqında məlumat;*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat;*
- *müvafiq işlər üzrə lisenziya və sertifikatları;*
- *iddiaçı şirkətin rəhbərinin, habelə işlərini idarə edənlərin satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində məhkum olunmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir **(https://etender.gov.az/)**.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 19 iyul 2022-ci il saat 12:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 27 iyul 2022-ci il saat 12:00-a qədər Bakı şəhəri, Mirzəağa Əliyev küçəsi, 130 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 28 iyul 2022-ci il saat 12:00-da Mirzəağa Əliyev küçəsi, 130 ünvanında "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Azərbaycan Dövlət Dəniz Akademiyasının tədris prosesində tələbələrə əyani şəkildə tədris etmək məqsədilə xüsusi ixtisaslaşdırılmış auditoriyanın yaradılması üçün ehtiyac olan kompüter avadanlıqlarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **adda.edu.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 iyun 2022-ci il saat 16:30-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1000 (indeks), Zərifə Əliyeva küç. 18, ADDA-nın əsas inzibati binası.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 3042.**

***Tender komissiyası***


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20


*ASCO-nun mülkiyyətində olan "Ordubad" sərnişin /ro-ro yük gəmisinə məxsus 7 iyul 2004-cü il tarixli 078 №-li və 14 mart 2008-ci il tarixli 01/178 №-li "Gəmi Tarixinin Fasiləsiz Qeydləri" (CSR) sənədləri itdiyi üçün etibarsız sayılır.*


Qəzetin daim yenilənən rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi Bakı Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru

**NƏSİR ƏHMƏDLİNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin sədri Elxan Süleymanov və məhkəmənin kollektivi həmin məhkəmənin hakimi Cəlil Nəbiyevə qardaşı

**CƏFƏR MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dövlət və bələdiyyə idarəetməsi fakültəsinin ikinci təhsil üzrə 4 kurs DB19/1 və DB19/2 qrup tələbələri Jalə Əhmədovaya atası, Ali Məhkəmənin sabiq hakimi

**FƏRHAD ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5967
Sifariş 1576
Qiyməti 40 qəpik